


## V İslam Həmrəyliyi Oyunları: ilk qızıl medal!

7

# Konyada V İslam Həmrəyliyi Oyunlarının açılışı mərasimi olub




3

Səs

№ 141 (6582) 10 avqust 2022-ci il. Qiymәti 60 qәpik

# Dünyada taxıl böhranı: Təhlükə artır!



Ən çox dünya bazarına taxıl ixrac edən ölkələr Rusiya, Ukrayna, ABŞ, Fransa və Kanadadır. Rusiya və Ukrayna arasındakı müharibə taxıl ixracatında böhranın daha da dərinləşməsinə səbəb oldu. Lakin Ukrayna müharibəsindən öncə də dünya bazarında taxılın qiymətində artımlar var idi...

6



## "Ev yandırmaq ənənəsi ermənilərdə geniş yayılıb"

7



## Möhkəm təmələ əsaslanan İQTİSADİYYAT

10



## Rus hərbi ekspert: "Ermənistan özünü dəhşətli vəziyyətə salıb"

15



# Turizm məkanlarını seçərkən nələrə diqqət yetirməliyik?

12

## "Qarabağ" Çempionlar Liqasının pley-offunda!



# "Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır!"

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşüblər








**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşüblər. Görüşdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır və bizim qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında artıq adi hala çevrilib:**

- Əziz idmançılar, əziz dostlar.

Mən indicə Konya Hava Limanında yerə enmişəm və hava limanından dərhal buraya, sizinlə görüşə gəlmişəm. Bu, bir ənənədir. Hər dəfə mötəbər beynəlxalq yarışlar ərəfəsində idmançılarla görüşüb onlarla söhbətləşirəm. Bu dəfə də istisna deyil.

Bu dəfə V İslam Həmrəyliyi Oyunlarında siz Azərbaycanı təmsil edəcəksiniz. Əminəm ki, ləyaqətlə təmsil edəcəksiniz. Çünki bizim idmançılar artıq bütün beynəlxalq yarışlarda öz gücünü təsdiqləmişlər. Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır və bizim qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında artıq adi hala çevrilib. Azərbaycan azarkeşləri də bir növ buna öyrəşiblər. Əminəm ki, idmançılarımız bu dəfə də gözəl nəticə göstərəcəklər. Artıq birinci qızıl medalımız var. Komandanı bu münasibətlə təbrik etmək istəyirəm. Oyunların rəsmi açılış mərasimi bu gündür, amma Oyunlar artıq davam edir. Əminəm ki, bu gözəl nəticə digər idmançılar üçün də gözəl bir stimul olacaq.



Bu dəfə bu Oyunlar Bakıdan sonra Konyada keçirilir, qardaş ölkədə keçirilir. Əminəm ki, siz özünüzü burada evinizdəki kimi hiss edirsiniz. Əlbəttə ki, bu Oyunların Türkiyədə keçirilməsi bizim üçün əlavə imkanlar yaradır. Əlbəttə, biz çox şadıq ki, bu Oyunlar qardaş Türkiyədə keçirilir. Əminəm ki, bu Oyunlar həm idman bayramı, həm də İslam həmrəyliyi bayramı kimi yadda qalacaq. Beş il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında bizim komandamız çox gözəl nəticə göstərmişdir, komanda hesabında birinci olmuşdur. Eyni zamanda, Bakıdakı Oyunlar İslam həmrəyliyinin güclənməsinə təkan vermişdir. Çünki müsəlman ölkələrinin idmançıları bir müddət bir-biri ilə sıx təmasda olmuşlar. Əminəm ki, burada da siz yeni dostlar tapacaqsınız. Çünki bu Oyunlar həm idman yarışıdır, həm də ki, müsəlman ölkələri arasındakı birliyi, həmrəyliyi, dostluğu möhkəmləndirən amildir.

Onu da qeyd etməliyəm ki, ilk dəfə olaraq Azərbaycan idmançıları İslam Həmrəyliyi Oyunlarında qalib ölkəni təmsil edəcəklər. Bu, hamımız üçün böyük qürurverici hadisədir. Çünki biz artıq müzəffər xalqın nümayəndələri, qalib ölkənin nümayəndələri kimi bu Oyunlarda iştirak edəcəyik. Döyüş meydanlarında əldə edilmiş Qələbə idman yarışlarında da özünü əks etdirəcək.

Bir sözlə, əziz idmançılar, mən sizi ürəkdən salamlayıram, sizə uğurlar arzulamaq istəyirəm. Əminəm ki, hər zaman olduğu kimi, Azərbaycanın idman bayrağı, idman şöhrətimiz yüksəklərdə olacaq və siz Vətənə qələbələr, müvəffəqiyyətlər, uğurlarla qayıdacaqsınız. Təbrik edirəm.



Daha sonra Gənclər və idman naziri Fərid Qayıbov, Güləşçi Rafiq Hüseynov, Stend atıcısı Rigina Meftahətdinova çıxış edərək gödtərilən diqqət və qayğı üçün dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Konyada V İslam Həmrəyliyi Oyunlarının açılışı mərasimi olub





**Avqustun 9-da Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.**

Açılış mərasiminin keçirildiyi Konya Böyükşəhər Bələdiyyəsi Stadionunun üzərində ”Türk Yıldızları” aerobatika komandalarının nümunəvi pilotaj uçuşları möhtəşəm mərasimin iştirakçılarına xoş anlar yaşadıb.

Sonra Livan əsilli isveçli müğənni Maher Zain konsert proqramı ilə çıxış edib. Konsert zamanı dron və işıq effektləri mərasimə xüsusi rəng qatıb. Daha sonra müqəddəs ”Qurani-Kərim”dən ayələr oxunub.

Tamaşaçılar arenaya daxil olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı, Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını hərarətlə alqışlayıblar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər




Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə qısa söhbət edib.

Mərasimdə əvvəlcə səhnəyə çıxan rəqqaslar V İslam Həmrəyliyi Oyunlarının loqosunu canlandırıblar. Oyunlar üçün xüsusi olaraq lalə formasında hazırlanmış loqo özündə 21 rəqəmini simvolizə edir. Loqoda, həmçinin ərəb dilində ”qardaş” sözünü bildirən “أخ” sözü də yer alıb.

Açılış mərasimində Türkiyə tarixinin müxtəlif dövrlərini və mədəni zənginliklərini əks etdirən kompozisiya nümayiş olunub. Kompozisiyanın sonunda işıq effektləri vasitəsilə səhnədə Türkiyə bayrağı və ay-ulduz fiquru təcəssüm etdirilib. Ardınca hərbçilər Türkiyənin Dövlət Bayrağını səhnəyə gətiriblər. Bayraq Türkiyənin Dövlət Himni - ”İstiqlal Marşı”nın sədaları altında qaldırılıb.

Bayrağın qaldırılmasından sonra ”Konya-2021” V İslam Həmrəyliyi Oyunlarının könüllülərinin və komandaların paradı olub. Azərbaycan idmançıları meydana dördüncü sırada daxil olublar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva komandamızın üzvlərini hərarətlə alqışlayıblar.

Açılış mərasimində Azərbaycanın üçrəngli bayrağını atlet Nazim Babayev və voleybolçu Ayşən Abduləzimova aparıblar.

Nazim Babayev Avropa çempionu, IV İslam Həmrəyliyi Oyunlarının qalibi, Qış Universiadasının ikiqat qalibi, Yeniyetmələrin Yay Olimpiya Oyunlarının bürünc medalçısıdır. Ayşən Abduləzimova isə qadın voleybolçulardan ibarət Azərbaycan millisinin kapitanı, ”Çağırış” kubokunun, ”Qızıl Avropa” liqasının və IV İslam Həmrəyliyi Oyunlarının qalibidir.

Azərbaycanı İslamiadada 281 idmançı təmsil edir. Onlar ağır atletika, atıcılıq, atletika, basketbol 3x3 (qadınlar və kişilər), cüdo, futbol, güləş, gimnastika, aerobika, bədii gimnastika, həndbol (qadınlar və kişilər), karate, kikboksinq, qılıncoynatma, oxatma, para-oxatma, para-atletika, para-üzgüçülük, stolüstü tennis, taekvondo, velosiped, voleybol (qadınlar və kişilər) və üzgüçülük yarışlarında güclərini sınayırlar.

Avqustun 18-dək davam edəcək V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən 4 mindən çox atlet idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə aparır.

# “Fələstin Azərbaycanın dəstəyini və göstərdiyi həmrəyliyi yüksək qiymətləndirir”

*Prezident İlham Əliyev Konyada Fələstinin Baş nazirini qəbul edib*

**Prezident İlham Əliyev dünən Konyada Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyehi qəbul edib. Mohammed Ştayyeh Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını Prezident İlham Əliyevə çatdırıb.**

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Mahmud Abbasa çatdırmağı xahiş edib.

Mohammed Ştayyeh Azərbaycanın Fələstinə göstərdiyi həmrəyliyə, verdiyi dəstəyə və humanitar yardımlara görə dövlətimizin başçısına minnətdarlığını bildirib. İkitərəfli əlaqələrimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini deyən Baş nazir İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstəyi vurğulayıb. Fələstin Dövlətinin Baş naziri Azərbaycanın bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə bağlı təbriklərini çatdırıb. Mohammed Ştayyeh Azərbaycanın Fələstində səfirliyinin açılması ilə əlaqədar məsələ qaldırıb.



Prezident İlham Əliyev Azərbaycan xalqının Fələstin xalqı ilə həmrəy olduğunu qeyd edib, Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın ölkəmizə səfərini və onunla təmaslarını məmnunluqla xatırlayaraq siyasi, iqtisadi, təhsil, mədəniyyət, idman sahələrində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Prezident İlham Əliyev fələstinli tələbələrin ölkəmizdə təhsil almasına toxunaraq, onlara dövlət tərəfindən ayrılan qrantları vurğulayıb və Azərbaycanın bu qrantları artırmağa hazır olduğunu bildirib.



# Türk dünyası xalqlarını tarixi köklər birləşdirir

Prezident İlham Əliyev Konyada Şimali Kipr Türk Respublikasının Prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Konyada Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarı qəbul edib. Görüşdə Türk dünyasında xalqlar arasında əlaqələrin möhkəmlənməsi işinə xidmət edən V İslam Həmrəyliyi Oyunlarının Türkiyədə keçirilməsinin önəmi vurğulandı. Bu mötəbər beynəlxalq idman tədbirinin Bakıda da yüksək səviyyədə təşkil olunduğu məmnunluqla qeyd edilib.

Söhbət zamanı Türk dünyası xalqlarının bir-biri ilə tarixi bağlılığına söykənən əlaqələrin humanitar, mədəniyyət, təhsil, idman sahələrində genişlənməsinin əhəmiyyətinə toxunuldu.



# Mədəniyyət ocağı "Mövlanə türbəsi"...

## Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Konyada Mövlanə muzeyini ziyarət ediblər







**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva avqustun 9-da Türkiyənin Konya şəhərində Mövlanə muzeyini ziyarət ediblər.**

Konya Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəhbəri Əbdülsəttar Yarar Birinci vitse-prezident Mehriban Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya muzey barədə məlumat verdi.

Bildirildi ki, türk və İslam dünyalarının ən böyük sufilərindən olan Mövlanə Cəlaləddin Ruminin Konyanın Karatay səmtində yerləşən muzeyi 1926-cı ildən Mövlanənin yaşadığı bina kompleksində fəaliyyət göstərir. Mədəniyyət ocağı həm də "Mövlanə türbəsi" kimi tanınır. Hündürlüyü 25 metr olan türbə dörd qalın - "fil ayaq" adlanan sütunlar üzərində tikilib. Türbənin əsas günbəzi firuzəyi rəngli olduğundan "Yaşıl qübbə" adlandırılır.







İçəridən piramida formalı olub üç tərəfi açıq, cənub tərəfdən isə divarlarla örtülü olan türbənin üstü qızılı ulduzlar, zəminləri isə müxtəlif rənglərlə boyanıb. Qübbənin yuxarısında ağ xətlə "Bismillah" və "Ayətül kürsü" həkk edilib.

Qeyd edildi ki, muzeydə Mövlanə ilə oğlu Sultan Velədə aid iki məzar var. Burada Osmanlı dövründə hədiyyə olunan nadir əsərlər nümayiş etdirilir. Ekspozisiyanın 4 qapısı - "Dərviş", "Hamuşan", "Çələbiyan" və "Pir" qapıları mövcuddur. Türbənin önündə Osmanlı dövrünün dövlət xadimlərindən olan Mahmud Paşa tərəfindən tikilən gümüş qəfəs var.

Diqqətə çatdırıldı ki, kompleksdə yer alan məsciddə Qaramanoğulları və Osmanlı dövrlərinə aid əlyazma, "Qurani-Kərim"in nüsxələri, Məsnəvilər və miniatür əlyazmaları ilə xalı səccadələr nümayiş etdirilir.

Vurğulandı ki, "Tilavət" adlanan otaq hazırda muzeyin xəttatlıq sənəti nümunələrinin nümayiş olunduğu bölmə kimi fəaliyyət göstərir. Ekspozisiyada Osmanlı dövrünün məşhur xəttatlarından sayılan Mahmud Cəlaləddin, Mustafa Raqim, Hülusi, İzzət, Yesarizad, Sultan II Mahmud kimi xəttatların lövhələri də var.

Daxil-i Üşşaq salonuna gümüş qapılardan daxil olurlar. Üstü üç qübbə ilə örtülmüş bu sahənin şimal tərəfində Xorasan ərlərinə aid tabutlar və gümüş qəndillər var. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

# TARİXİ QƏLƏBƏ, BÖYÜK QAYIDIŞ



## PREZİDENT İLHAM ƏLİYEV: "Siz köçkün deyilsiniz, siz qayıdırsınız"

**Bəli, sözü imzası qədər qüvvətli olan lider, Ali Baş Komandan İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk gündən həyata keçirdiyi siyasət respublikamızın davamlı yüksəlişini, möhkəmlənməsini, qüdrətlənməsini təmin edib. Ən böyük qələbəmiz 30 illik bir mücadilənin Zəfərlə başa çatması oldu. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz ötən il sentyabrın 27-də təcavüzkar Ermənistanın işğalı altında saxladığı əzəli torpaqlarımızın azad olunması uğrunda müharibəyə başladı. Savaşın hər səhər-axşamı qələbəyə təşnə olanların gözləri yollarda, qulaqları səsdə oldu. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərinin, kənd və qəsəbələrin, adlı-adsız yüksəkliklərin azad olunması xəbəri köçkünlərimizin yanğılı ürəklərinə su sərpdi.**

Noyabrın 8-i isə Ali Baş Komandan İlham Əliyev yerə-göyə sığmayan sevincini arxalandığı, ürək qızdırdığı xalqı ilə bölüşərək, "Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!", - dedi və belə bir müjdəni xalqa çatdırmaqla bəlkə də həyatında ən xoşbəxt günlərindən birini yaşadığını söylədi: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

### DUALARIMIZIN ÇİN OLDUĞU MÜQƏDDƏS MƏQAM

Bəli, bu günlər Azərbaycan xalqı olaraq, sözün əsl mənasında, möcüzə dediyimiz tarixi anlara şahidlik edir, dualarımızın çin olduğu müqəddəs məqamlar yaşayırıq. Eynilə qalib sərkərdə İlham Əliyevin Ağdam məscidinə Məkkədən gətirdiyi müqəddəs Qurani-Kərimi bağışlayarkən torpaqlarımızın işğaldan azad olunmasından duyduğu xoşbəxtlik hissini dilə gətirdiyi kimi: "...Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq". Bəli, məhz xalqımızın hər bir şəxsinin, ən ali şəxsindən, ən sıravi üzvünə qədər saf və ülvi hisslərlə Vətənə bağlılığı idi ki, bizə şər üzərində qələbə çalmağa güc verdi, haqqı nahaqqa qurban verməmək üçün xalqımızı qüvvətli etdi. Mənfur düşməndən fərqli olaraq, Qarabağ, Zəngəzur bizim üçün sadəcə torpaq deyil, bu torpağın hər qarışı qəhrəman oğullarımızın qanları ilə suvarılaraq Vətənə çevirdiyi müqəddəs məkandır. Məhz buna görədir ki, igid oğullarımız 30 il-dir dədə-baba yurdumuza göz dikərək maddi-mədəni abidələrimizi məhv edən, orada Azərbaycan xalqına məxsus bütün izləri silməyə çalışaraq zorla özünü Qarabağımıza, Zəngəzurumuza yamamaq istəyən düşməni cəmi 44 gün ərzində qarşısında diz çökdürdü. Dədə-baba torpağından didərgin düşən yüz minlərlə vətəndaşımızın Vətən həsrətinə son qoyuldu, möhtəşəm Böyük qayıdış başladı... Böyük Qayıdışın başlanğıcı - 2017-ci ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində qoyulmuşdu. 2016-cı ildə Azərbaycan Ordusunun Aprel zəfəri ilə azad olunan bu Vətən torpağımız doğma sakinlərinə sevinclə qucaq açan ilk yurdumuz olmuşdu. Həmin gün, illərdən sonra yenidən öz yurd-yuvalarına qayıdan soydaşlarımızın yanında olan Prezident İlham Əliyev Lələtəpədə və digər işğaldan azad edilən ərazilərdə dalğalanan Azərbaycan bayrağının, gün gələcək Şuşada dalğalanacağını da bütün dünyaya bəyan etmişdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayılda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirmişdir: "Cəbrayılın azad olunması artıq beş il bundan əvvəl başlamışdı. Aprel döyüşləri nəticəsində Cocuq Mərcanlı kəndinə insanları qaytarmaq üçün imkanlar əldə edildi. Strateji yüksəkliklər işğalçılardan azad olunandan sonra Cocuq Mərcanlıya həyatın qayıtması artıq mümkün olmuşdur və bu, bizim önəmli qələbəmiz idi. Çünki bu, uzun fasilədən, atəşkəsdən sonra ilk böyük qələbəmiz idi".

Dövlət başçısı onu da bildirmişdir ki, o vaxt işğalçı Ermənistan bu qələbəni kiçiltmək istəmişdilər: "Hətta bəyan edirdilər ki, bu, o qədər də böyük əhəmiyyət daşıyan ərazilər deyil və sanki Ermənistan tərəfi qalib gəlmişdi. Mən hələ o vaxt deyirdim ki, biz gəlmişik, onların qazdıqları səngərlərdə yerləşmişik, necə ola bilər ki, Ermənistan burada qalib gəlib?! Biz o vaxt böyük ərazini, əlbəttə ki, o vaxt üçün böyük ərazini - bir neçə min hektarı azad etmişdik və təqribən 9-10 min hektar əraziyə nəzarəti əlimizə keçirmişdik. Təkcə bu istiqamətdə yox, eyni zamanda, Ağdərə istiqamətində çox önəmli strateji yüksəklikləri biz o vaxt götürdük ki, İkinci Qarabağ müharibəsində bu yüksəkliklərin çox böyük əhəmiyyəti olmuşdur. O vaxt biz haqlı olaraq Aprel döyüşlərindəki qələbəni Ordumuzun şanlı qələbəsi kimi qeyd edirdik və bizim qayıdışımızın da başlanğıcı məhz o vaxt olmuşdur....Yəni, bizim "Böyük Qayıdış"ımız Cəbrayıldan başlamışdır və İkinci Qarabağ müharibəsindəki birinci ciddi uğurumuz da məhz Cəbrayıl şəhəri ilə, Cəbrayıl rayonu ilə bağlıdır. Bu, ölkəmizin tarixində əbədi qalacaq bir hadisədir. Çünki İkinci Qarabağ müharibəsindəki Qələbəmiz tarixi qələbədir. Buna bənzər Qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Bütün xalq bu Qələbəni əldə etmək üçün birləşdi, Ordumuzun arxasında durdu və Ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq".

### "SİZ KÖÇKÜN DEYİLSİNİZ, SİZ QAYIDIRSINIZ"

44 günlük Vətən müharibəsində qazandığımız parlaq zəfərin üzərindən heç bir gün keçməmiş, Müzəffər Ali Baş Komandan İlham Əliyev yurdlarından didərgin salınan yüz minlərlə insanın tezliklə doğma torpaqlarına qovuşacağının müjdəsini vermiş, demişdi: "Siz köçkün deyilsiniz, siz qayıdırsınız". Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü zamanı bildirib ki, burada oturanlar, bizim minlərlə əsgər və zabitlərimiz sizi öz doğma dədə-baba torpaqlarınıza qaytarırlar: "Biz Azərbaycan dövləti isə əlimizdən gələni edəcəyik ki, sizi tezliklə qaytaraq. İlk növbədə, əlbəttə, təhlükəsizlik tədbirləri görülməlidir. Mənfur düşmən o bölgələrdə demək olar ki, hər yerə minalar döşəyib. İndi minalardan təmizləmə prosesi getməlidir. Biz indi beynəlxalq təşkilatları da cəlb edəcəyik. Çünki qısa müddət ərzində bunu etmək üçün bizdə daxili imkanlar məhduddur. İlk növbədə, təhlükəsizlik, ondan sonra infrastruktur, ondan sonra bütün başqa bərpa məsələləri öz həllini tapacaq. Eyni zamanda, bildiyiniz kimi, bu 44 gün ərzində düşmən öz məğlubiyyətinin acısını mülki vətəndaşlardan çıxarmaq istəyirdi". Dövlət başçısı onu da bildirdi ki, bizim vətəndaşlarımız tam əmin ola bilərlər ki, onların itirilmiş bütün mülkiyyəti bərpa ediləcək: "Mən söz verirəm ki, onlar üçün tikiləcək evlər, əvvəlki evlərdən daha yaxşı olacaq, daha keyfiyyətli olacaq, daha geniş olacaq. Biz bunu edəcəyik". Bəli, bu gün görülən işlər, Şərqi Zəngəzurda və Qarabağda böyük quruculuq və bərpa işləri aparılır. İşğaldan azad edilən torpaqlarımızda infrastruktur yenilənir, yollar çəkilir, beynəlxalq hava limanları tikilir. Eyni zamanda barbar ermənilərin illərlə divan tutduğu tarixi, mədəni, dini irsimiz bərpa olunur. Yeni şəhərlərin təməli qoyulur, "ağıllı kənd"lər salınır...

### "AĞILLI KƏND" KONSEPSİYASI İLƏ QURULMUŞ MÖHTƏŞƏM MƏKAN

Budur, artıq ilk "ağıllı kənd"imiz Zəngilanın Ağalı kəndi yeni sakinlərinə qovuşur. Müasir şəhərsalma standartları tətbiq olunmaqla yenidən qurulan kənddə, bu il mayın 27-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi keçirilib. Ağalı kəndinin mərkəzi meydanında otuz ilə yaxın müddətdə işğal altında qalan əzəli torpaqlarda sülhün əbədi gerçəkləşdirilməsini təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi də elə dövlət başçısı İlham Əliyev tərəfindən işə salınıb. Ağalı kəndi bu gün nəinki Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda ilk "ağıllı kənd" konsepsiyası ilə qurulmuş möhtəşəm məkandır.

### "BİZ, BU TORPAQLARIN ƏBƏDİ SAHİBLƏRİ QAYITMIŞIQ"

Göründüyü kimi, dövlət başçısı İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında müharibədən ötən qısa müddət ərzində böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzur artıq doğma sakinlərini qəbul etməyə başlayıb. Çox tezliklə, bütün keçmiş məcburi köçkünlər Azərbaycanın qələbə bayrağı ilə bəzədilmiş karvanlarla doğma yurdlarına dönəcəklər. Çünki bu torpaqların əbədi və daimi sahibləri öz doğma - dədə, baba yurdlarına qayıdıb. Sonda fəxrlə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə "Böyük Qayıdış" üçün bütün zəruri tədbirlər həyata keçirilir, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir. Və bu gün hamı "Böyük Qayıdış"ı gözləyir, o günə çox az qalıb...

**RƏFİQƏ KAMALQIZI**

# Dünyada taxıl böhranı: Təhlükə artır!



**Ən çox dünya bazarına taxıl ixrac edən ölkələr Rusiya, Ukrayna, ABŞ, Fransa və Kanadadır. Rusiya və Ukrayna arasındakı müharibə taxıl ixracatında böhranın daha da dərinləşməsinə səbəb oldu. Lakin Ukrayna müharibəsindən öncə də dünya bazarında taxılın qiymətində artımlar var idi. Bu böhrana səbəb taxıla tələbin artması, istehsalın azalmasına görə dünya taxıl ehtiyacını ödəyə bilmirdi. Dünyadakı taxıl üzərində balans beləcə pozuldu. Balansın pozulmasına səbəb dünya ölkələrinin qeyri-effektiv iqtisadi idarəetmə sisteminin olmasıdır. Taxıl böhranı ərzaqlarda, eyni zamanda, un məhsullarının qiymətində bahalaşmaya səbəb oldu. Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar bu gün qlobal taxıl böhranını yaradan əsas amillərdən biridir.**

Son illər buğda istehsalında böyük uğurlar qazanan Ukrayna münbit torpaqları və münasib iqlim şəraiti ilə kənd təsərrüfatı sahəsində dünyada ən yüksək istehsal potensialına malik ölkələrdən biri oldu. Ukrayna təkcə Avropa üçün deyil, həm də dünya üçün çörək səbəti kimi görünürdü.





Dünyanın taxıl anbarı olan Rusiya ilə Ukrayna arasındakı müharibə bütün dünyada böyük ərzaq böhranına səbəb oldu.

Müharibə başlayandan 5 ay ərzində beynəlxalq bazarlarda buğdanın qiyməti 34 faiz artdı. Bərəkətli torpaqları və əlverişli iqlim şəraiti ilə Ukrayna kənd təsərrüfatı sahəsində dünyada ən yüksək istehsal potensialına malik ölkələrdən biridir. Ukrayna keçmiş Sovet İttifaqını təşkil edən 15 respublika arasında Rusiya Federasiyası və Qazaxıstandan sonra ərazisinə görə üçüncü böyük ölkədir. Ukraynanın 70%-i aran, 25%-i yüksək, 5%-i dağlıqdır. Ukrayna torpaqlarının 55%-i əkin sahələridir.

2020-ci ildə ölkənin ixrac etdiyi əsas məhsullar Toxum Yağları (10,8%), Dəmir Filizi 8,6% təşkil edir. 2020-ci ildə 54 milyard dollar idxalla (11% azalaraq) dünyada 48-ci yerdə Çin 15,5 faizlə birinci, Rusiya 13 faizlə ikinci, Almaniya 9,8 faizlə 3-cü yerdə Türkiyə 7-ci yerdədir. 4,5 faizlə yer alıb.

Məhsullarının 90 faizini gəmilərlə ixrac edən Ukraynanın taxılını limanlarda bağlayan Rusiya ərzaqdan silah kimi istifadə edərək qlobal miqyasda ərzaq böhranının böyüməsinə səbəb oldu.

22 milyon ton Ukrayna taxılının ölkədən ixracının qarşısı Rusiya tərəfindən alındı. Bu vəziyyət aclıqla mübarizə aparan Afrika və Asiya ölkələrində aclıq və qıtlıq probleminə səbəb olub.

Odessa Limanında taxıl anbarları boşaldıla bilmədi və nəticədə yeni məhsul yığıla bilmədi. Ümumdünya Ticarət Təşkilatının məlumatlarına görə, müharibədən sonra ümumilikdə 34 ölkə öz vətəndaşlarını aclıq ehtimalından qorumaq üçün taxıl ticarətinə maneələr qoyub.



**Məsələ ilə bağlı SİA-ya öz fikirlərini bölüşən iqtisadçı-ekspert Xalid Kərimli** deyib: "Taxıl böhranının yaranma səbəbi odur ki, dünyanın iki ən böyük taxıl ixracatçısı Rusiya və Ukraynanın müharibə etməsidir. Rusiya taxıl ixracatına görə birinci yerdə, Ukrayna isə beşinçi yerdə dayanır. Dünya taxıl ixracının 18 faizi Rusiyanın, 7-8 faizi isə Ukraynanın payına düşür. Yəni iki ölkə bir yerdə dünyada taxıl ixracının 25 faizini təşkil edir. Hindistan və Çində taxıl ixracı güclü olsa da, onlar daxili istehlaka önəm verdiklərindən taxılı dünya bazarına çox çıxarmır. Müharibədən öncə də artıq quraqlığa görə taxıl böhranı yavaş-yavaş başlamışdı. Rusiya Ukrayna müharibəsi ortaya çıxdıqdan sonra neft-kimya məhsullarının bahalaşması da bu vəziyyəti daha da çətinləşdirdi. Müharibə olduqdan sonra Ukraynada taxıl yığımının olmaması, Rusiyaya qoyulan sanksiyalar vəziyyəti qəlizləşdirdi. Bu səbəbdən taxılın qiyməti bahalaşdı. Qlobal dəyər zəncirində yaranmış problemlər istehsalat, daşıma xərclərinin artması, Rusiyaya tətbiq edilən sanksiyalar, Ukrayna taxılının dünya bazarına çıxarılmayacağı ilə bağlı qorxular böhranı şiddətləndirdi. Rusiya Ukrayna müharibəsi bir müddətdir ki, davam edir. Dünya artıq qorxmaq əvəzinə reallıqları görməyə başladı. Beləliklə, bazarda taxılın qiyməti stabilləşdi. Türkiyə və BMT-nin vasitəçiliyi ilə Oddessada yığılan taxıl dünya bazarına çıxarılmasına və Qara dənizdə dəhlizin açılması ilə bağlı görüş nəticəsində taxıl krizi düzəldi. Taxıl böhranı səbəbindən narahat olan dünyada rahatlanma yarandı. Bir illik müqayisədə indi taxılın qiymətində bahalaşma olsa da, keçən aylara görə daha azdır. Taxıldakı ucuzlaşma dayanıqlı olarsa, Azərbaycanda da ucuzlaşmasını müşahidə edəcəyik".

Bu proses nəticəsində taxılın daşınması dayanıb və qiymətlər təxminən iki dəfə artıb.

Bu vəziyyət Azərbaycan üçün də problem yaradıb. Azərbaycan bazarında da taxıl məhsullarında bahalaşma oldu. Azərbaycan müəyyən qədər öz taxıl tələbatını ödəməyə qadirdir. Lakin bu, "tam tələbatı ödəyir" ifadəsini demək düz deyil. Azərbaycan Rusiya-Ukrayna müharibəsindən öncə taxıl ehtiyatlarını artıran ölkələrdəndir. Yalnız bu ilin yanvar ayında taxıl idxalımız 4 dəfə artıb. İdxal daha çox Qazaxıstandan həyata keçirilib. Praktik olaraq əkin sahələrinin 38%-i buğda əkini üçün istifadə edilir. İllik buğda istehsalı isə 1,9 milyon tondur və son illər istehsalda cüzi olsa da, artımlar müşahidə edilməkdir. İşğaldan azad olunan ərazilərimizin də buğda istehsalına xüsusi töhfə verəcək. Yerli məhsulların çox olması isə ərzaq təhlükəsizliyinin qorunması üçün vacibdir.

Bütün dünya üçün çox təhlükəli vəziyyətdir.

Avropa Birliyinin Nümayəndəsi Cozef Bore bildirib ki, müharibənin təsirləri təkcə Ukrayna üçün deyil, bütün dünya üçün getdikcə daha təhlükəli hala gəlir: "Xüsusilə, Afrikada böyük aclıq ehtimalına qarşı xəbərdarlıq edirik. Qiymətlərin artmasına və aclığa səbəb olan birinci amil müharibədir. Bu böhranın səbəbi Rusiyaya qarşı sanksiyalar deyil".

Türkiyənin zəmanəti ilə taxıl üçün təhlükəsiz ticarət yolu açılıb və hələ də anbarlarda saxlanılan təxminən 22 milyon ton Ukrayna taxılının Yaxın Şərq ölkələrinə və Afrikaya daşınacaq. Bu mənada, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiya prezidenti Putin və Ukrayna arasında əlaqə yaradaraq ərzaq böhranının həllinə dair diplomatik görüşləri müsbət istiqamətdə irəlilədi.



**Mövzu ilə əlaqədar SİA-ya açıqlama verən Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov** belə deyib: "Taxıl istehsalında azalmalar, həmçinin, Rusiya-Ukrayna müharibəsi fonunda daha da intensivləşdi. Praktiki olaraq taxıla tələbin artmasını müşahidə etdik. Nəticə etibarilə bu, dünyada taxıl qıtlığının yaranmasına səbəb oldu. Növbəti illərdə də gözlənilən odur ki, taxıl istehsalının azalması fonunda taxıl qıtlığı problemi daha da dərinləşəcək. Xüsusən də, Rusiya-Ukrayna müharibəsi nəticə etibarilə dünya bazarına çıxarılan taxılın həcminə təsir göstərir. Digər tərəfdən də, istehlakın artması da birmənalı şəkildə taxıla olan tələbə təsir göstərir. Baxmayaraq ki, Hindistan dünyada ikinci ən çox taxıl istehsal edən ölkədir, daxili istehlakın artması ilə Hindistanın ixracatı ciddi şəkildə məhdudlaşıb. Bu baxımdan, növbəti illərdə də taxılın tələbi ilə təklifi arasında fərqin genişlənəcəyi və taxılın qiymətində artımın olacağını göstərir. Bu da nəticə etibarilə ondan xəbər verir ki, qlobal iqlim dəyişikliyinin, quraqlığın ən çox təsir sektorlarından biri taxıl istehsalıdır. Dünyada baş verən münaqişələr isə taxıl qıtlığına gətirib çıxarır".

***Qönçə Quliyeva***

# V İslam Həmrəyliyi Oyunları: ilk qızıl medal!




Dörd ildən bir keçirilən beynəlxalq idman tədbiri İslam Həmrəylik Oyunlarında İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin idmançıları iştirak edir. İlk dəfə bu oyunlar Səudiyyə Ərəbistanında keçirilmişdir və bu gün yarışda İslam Konfransı Təşkilatının 57 üzvü iştirak edir. Vurğulayaq ki, təşkilata üzv olan ölkələrin qeyri-müsəlman vətəndaşlarına da oyunlarda iştirak etməyə icazə verilir. Yarış dördüncü dəfə 2017-ci ildə Bakıda keçirildi. Bu oyunlar Azərbaycanda təkcə idman yarışması kimi deyil, eyni zamanda, xalqlar arasında əlaqələrin və dialoqun təşviqi platforması kimi də tarixə düşdü. Əsas şüarı "Həmrəylik bizim gücümüzdür" olan oyunlar idman yarışması olsa da, müasir dünyada müxtəlif xalqları bir araya gətirərək, onlar arasında birlik və həmrəyliyin güclənməsində rol oynadı. Azərbaycanın müsəlman aləminin həmrəylik oyunlarına ev sahibliyi etməsi, əlbəttə ki, ölkəmiz üçün böyük nailiyyət idi. Azərbaycan müstəqil, islami dəyərlərə böyük hörmətlə yanaşan dövlət kimi, bu oyunların da uğurla keçməsini təmin etdi. Azərbaycan dövlətinin, ölkə başçısı Cənab İlham Əliyev ardıcıl olaraq ölkənin bütün sahələrinin inkişafı üzrə islahatlar həyata keçirməklə yanaşı, idman sahəsini də hər zaman diqqətdə saxlayır. Prezident İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Artıq Azərbaycan bu sahədə zəngin təcrübəyə malikdir. Azərbaycanda hökm sürən sabitlik, iqtisadiyyatın sürətli inkişafı, qayğı beynəlxalq yarışların Azərbaycanda keçirilməsini dəstəkləyən amillərdir. "Bakı - 2015" ilk Avropa Oyunlarında olduğu kimi, sülh, əmin-amanlıq və sabitlik ölkəsi olan Azərbaycanda "IV İslam Həmrəyliyi Oyunları"ı da idman tarixinə yeni səhifə yazdı. İlk oyunlarının Bakıda keçirilməsi böyük nailiyyət oldu. "Bakı-2015" ilk Avropa Oyunları yüksək səviyyədə təşkil olundu və tarixi qələbə qazanıldı. İdmançılarımızın uğuru əvəzsiz oldu. Azərbaycan müstəqil, islami dəyərlərə böyük hörmətlə yanaşan bir dövlət kimi, bu oyunların da uğurla keçməsini təmin etdi. IV İslam Həmrəyliyi Oyunlarının müstəqil və gənc dövlət olan Azərbaycanda təşkili, bu ölkənin müsəlman dünyasına verdiyi töhfədir. 2015-ci ildə keçirilən ilk Avropa Oyunlarında Azərbaycan Avropa ölkələri ilə müqayisədə Oyunlarda Rusiyadan sonra ikinci yerə sahib oldu.

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq yüksək səviyyədə idi. İslam Həmrəyliyi Oyunlarında 57 ölkə iştirak edirdi ki, bu da rekord göstərici idi. Oyunlarda, ümumilikdə 8 minə qədər könüllü iştirak edirdi. Aprelin 5-də start götürən "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahəti Naxçıvanda, sonra Azərbaycanın digər 14 şəhərində də davam etdirildi.

**ATLETLƏRİMİZ 162 MEDALLA "BAKI-2017"-NİN ƏN GÜCLÜLƏRİ OLDULAR**

Qeyd edək ki, "Bakı-2015" ilk Avropa Oyunları bu oyunların standartlarını müəyyənləşdirdi və idmançılarımız üçün ən böyük qələbə meydanı oldu. Avropanın 50 ölkəsindən 6000-dən çox idmançının iştirak etdiyi yarışlarda Azərbaycan atletləri 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanaraq 2-ci yeri tutdular. IV İslam Həmrəyliyi Oyunlarında idmançılarımız elə bir möhtəşəm uğura imza atdılar ki, bu, yaddaşlardan silinmir. Belə ki, atletlərimiz 162 medalla (75 qızıl, 50 gümüş, 37 bürünc) "Bakı-2017"nin ən güclüləri oldular. Atletlərimiz indiyədək iştirak etdikləri festivallarda yüksək nəticələr qazanıblar. Belə ki, Minskdə keçirilən ikinci Avropa Oyunlarında Azərbaycan millisinin 10-cu yerdə qərarlaşması idmanımızın növbəti uğuru oldu. 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq, komanda hesabında 50 ölkə arasında 10-cu yerdə qərarlaşdı. Komandamız Oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vurdu.

Paytaxtımızda keçirilən XV Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində Azərbaycan idmançıları növbəti zəfərlərini qazandılar. Dünyanın 7 gün ərizində izlədiyi XV Avropa Gənclər Olimpiya Festivalında Azərbaycan idmançılarının qələbələri bu sevinci daha da artırdı. Avropanın 48 ölkəsindən 3900-dək atletin mübarizə apardığı "EYOF Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalında - idman mübarizəsində 23 medal - 10 qızıl, 7 gümüş və 6 bürünc qazanan Azərbaycan millisi komanda hesabında dördüncü pillədə qərarlaşdı.

Bolqarıstanda keçirilmiş Avropa çempionatında gənc güləşçilərimizin ölkəmizi layəqətlə təmsil edərək böyük uğura imza atıblar. Belə ki, bu yarışda idmançılarımız 16 medal qazanıb ki, onlardan 7-si qızıl medaldır. Bu da Azərbaycan güləşi tarixində rekord nəticədir.

**AZƏRBAYCAN TƏMSİLÇİLƏRİ 24 İDMAN NÖVÜNDƏN 22-SİNDƏ İŞTİRAK EDİR**

Bütün bunlar onu göstərir ki, hazırda Azərbaycan idmanı inkişafının ən yüksək dövrünü yaşayır. Azərbaycan idmanın bugünkü inkişaf səviyyəsi gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi yüksək diqqət və qayğının göstəricisidir. Respublikamızda idmanın qısa müddətdə yüksək inkişaf səviyyəsinə çatması, idmançılarımızın beynəlxalq arenada böyük uğurlar qazanması birbaşa bu sahəyə göstərilən dövlət qayğısı ilə bağlıdır. Cənab İlham Əliyev həm dövlət başçısı, həm də Milli Olimpiya Komitəsinin rəhbəri kimi Azərbaycanda idmanın kütləviliyinin təmin olunmasına böyük diqqət yetirir. İdmançıların xüsusi diqqət və qayğı ilə əhatə olunması idmanın inkişafını stimullaşdırmaqla yanaşı, bu sahədə qarşıya qoyulan bütün hədəflərə çatmağa imkan verir. Bu gün isə Azərbaycan idmançısı daha bir tarixi qələbəyə imza atıb. Beşinci İslam Həmrəyliyi Oyunlarında tarixi qələbə.Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında artıq Azərbaycan millisinin hesabında 1 qızıl medal var. Atletimiz Anna Skidan çəkicatma yarışlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Qeyd edək ki, Azərbaycan təmsilçiləri İslamiadada 24 idman növündən 22-sində iştirak edir. Yarışda 56 ölkədən 4 mindən artıq idmançı medallar uğrunda mübarizə aparır. İdmançılar atıcılıq, atletika, basketbol (3x3), velosiped, gimnastika (idman, bədii, aerobika), futbol, qılıncoynatma, güləş, ağır atletika, həndbol, cüdo, karate, kikboksinq, stolüstü tennis, kamandan oxatma, taekvondo, voleybol, üzgüçülük və milli oxçuluq növlərində yarışacaqlar.

Paralimpiyaçılar isə atletika, stolüstü tennis, kamandan oxatma, boccia və üzgüçülük yarışlarında güclərini sınayırlar. Oyunlar vaxtı 483 dəst medal sahibini tapacaq.Azərbaycan idman ölkəsi statusunu qoruyub saxlayır. Bütün bunlar Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür.

*Nəzakət ƏLƏDDİNQIZI*

## "Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir"



"Azərbaycan Cənab Prezident İlham Əliyevin rəhbərliyi və 44 günlük Vətən müharibəsində rəşadətli ordumuzun gücü ilə 30 illik erməni işğalına son qoydu. Ermənistan diz çökərək kapitulyasiya aktına imza atdı. Beləliklə, Üçtərəfli Bəyanamə imzalandı". Bu sözləri SİA-ya açıqlamasında deputat Cavid Osmanov deyib.

Onun sözlərinə görə, bəyannaməyə uyğun olaraq Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir: "Erməni hərbi terrorçular hələ də Azərbaycan ərazisində mövcuddur. Onlar Vətən müharibəsi bitdikdən sonra dəfələrlə təxribat törədiblər. Ermənistan bilməlidir ki, Azərbaycanın səbr kasası limitsiz deyil. 3 avqust tarixində Azərbaycan erməni təxribatlarının qarşısını alaraq Qisas əməliyyatı keçirərək onların canlı qüvvə, hərbi texnika və postlarını məhv etdi. Həmçinin, ordumuz çox vacib yüksəklikləri nəzarətə götürdü".

Deputat sözlərinə belə davam edib: "Əgər Ermənistan nəticə çıxarmayacaqsa, sözdə sülhə söz verib əməldə bunu göstərməyəcəksə Azərbaycan anti-terror əməliyyatı keçirmək hüququnu saxlayır və istənilən vaxt bunu edə bilər. Artıq beynəlxalq aləm bununla bağlı Ermənistana təzyiq etməlidir.

Bu gün Ermənistan bölgədə sülh və əmin-amanlığa qarşı çıxır. Necə ki, Azərbaycan BMT-nin 4 qətnaməsini öz gücü ilə icra etdi, Ermənistan da tabe olmasa onları da acınacaqlı vəziyyət gözləyir".

*Ayşən Vəli*

## "Ev yandırmaq ənənəsi ermənilərdə geniş yayılıb"



"Erməni mənbələrinə istinadən deyə bilərik ki, əsasən Zabuxda yaşayan ermənilər öz evlərini yandırmaq istəyirlər. Amma Qarabağda olan erməni nümayəndələri onlara bildirib ki, evlərini yandıranlara kompensasiya düşməyəcək". Bu sözləri SİA-ya açıqlamasında politoloq Fərhad Məmmədov deyib.

Onun sözlərinə görə, ümumiyyətlə, ev yandırmaq ənənəsi ermənilərdə geniş yayılıb: "Onlar həm azərbaycanlıların evlərinə daxil olduqda oranı yandırırlar, həm də çıxanda bunu edirlər. Bunu Kəlbəcər və Laçında da gördük. Böyük ehtimal bu təkrar olunacaq".

Fərhad Məmmədov sözlərinə belə davam edib: "Artıq məlumatlar var ki, onlar meşələri keçməyə başlayıb. Bu da onun göstəricisidir ki, Ermənistan hökumətinin onlara hər hansı yardım göstərəcəyinə inamları yoxdur. Bütün bu hadisələr təkrarlansa, Azərbaycan bir daha nümayiş etdirəcək ki, ermənilər həm işğal dövründə, həm də indi bu torpaqlarla bağlılığı olmayan insanlardır. Əgər onlar buranı öz tarixi torpaqları hesab edirsə, bu torpaqlara ziyan vurmamalıdırlar. Biz artıq bunu bilirik və indi sıra dünyanın bunu öyrənməyindədir".

*Ayşən Vəli*

# Bəşəriyyət üçün QARA LƏKƏ: erməni terrorizmi!







Mövcud fakt və reallıq ondan ibarətdir ki, son 200 ildə ermənilərin Azərbaycan xalqına qarşı düşünülmüş şəkildə həyata keçirdiyi düşünülmüş soyqırımı siyasəti xalqımız üçün çox ağır nəticələrə gətirib çıxarmışdır. Erməni terrorçuları və onların havadarları qeyri-insani siyasət yeridərək azərbaycanlıları min illər ərzində yaşadıqları doğma tarixi torpaqlarından didərgin salmış, insanlar qətlə yetirilmiş, xalqımızın tarixi yaşayış məskənləri dağıdılmış, yandırılaraq yerlə-yeksan edilmişdir. Tarixi mənbələrə görə, 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqlarına məxsus torpaqlarda yeni inzibati bölgü-erməni vilayəti təşkil edilərkən bu ərazidə mövcud 111 yaşayış məntəqəsindən cəmi 62-si erməni kəndi olmuşdur. Həmin illərdə dağıdılmış 359 azərbaycanlı kəndinin əhalisinin çox hissəsi öldürülmüş, qalanları isə təqiblərə və milli ayrı-seçkilik siyasətinə məruz qalaraq İran və Türkiyə torpaqlarına qaçmağa məcbur olmuşlar. XX əsrin əvvəllərində xarici ölkələrdən köçürülən ermənilərin sayının bir milyona çatması bölgədə demoqrafik vəziyyətin tamamilə dəyişməsinə gətirib çıxarmışdır. Erməni daşnak millətçilərinin "Böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsində milli qırğınlara səbəb olmuşdur. Bu qırğınlar 1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda davam etmişdir. Erməni daşnak quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər. Ermənilər təkcə Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında 200-dən çox yaşayış məntəqəsini dağıtmış, əhalini vəhşicəsinə qətlə yetirmişlər. Erməni terrorçuları hələ 1904-cü ilin senyabrında Bakı şəhərində bir neçə azərbaycanlını qətlə yetirmişlər. Həmin qətllər isə ermənilər tərəfindən xəbərdarlıq xarakteri daşımışdır. 1905-ci il fevralın 5-də erməni terrorçu dəstələri Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi öldürmüşlər. Qətl iğtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldur dəstələri realnı və texniki məktəblərin 7-ci sinif şagirdləri Yakov Lebedevi və İvan Volkovu öldürmüşlər. Erməni alimi C.Libardyanın yazdığına görə, üç il ərzində (1904-1906-cı illər) erməni terrorçuları 105 "Siyasi qətl" törətmişlər. Bunların 56-sı ermənilərə qarşı, 32-si siyasi bəhanələrlə həm ruslara, həm də türk məmurlarına və zabitlərinə qarşı, 2-3-ü təsadüfən, heç bir səbəb olmadan, qalanları bankirlərə və sələmçilərə qarşı olmuşdur. Alimlər Libardyanın göstərdiyi rəqəmləri araşdıraraq yazmışlar: " Bu qısa üçillik dövrdə erməni terrorçuları tərəfindən öldürülmüş, erməni mənşəli hər iki adamla yanaşı, bir qeyri-erməni mənşəli şəxs də qanına qəltan edilmişdir.

Məqsəd dəyişməyibdir: dinc ermənilərin böyük əksəriyyətini qəsdən qorxutmaq, onları terrorçuların qabiliyyətini təşviq etmək məcburiyyətində qoymaq". 1905-ci il fevralın 7-də erməni terror təşkilatı Bakıda 100-dək dinc vətəndaşlarımızı öldürmüş və yaralamışdır. Erməni quldur dəstələri həmin ilin fevral ayında Bakı sakinlərini qətl və qarətlərə məruz qoymuşdular. Erməni dəstələri kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin (Balabek Lalayev, Artyom Babayants, Akop Muradyan, Karen Saakyants və b.) evlərinə yığılmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış, ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. 1905-ci ilin 6-10 fevral qırğınları tarixə "Bakı şəhərində qanlı qətliam" kimi düşmüdür. "Daşnakütyun" beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin müsəlman sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər. Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir. Ümummilli liderimiz Heydər Əliyev bu hadisələrə belə qiymət vermişdir: "Saxtalaşdırılmış erməni tarixi dinc ermənilərin şovinist ruhda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradır".

1905-ci il mayın 11-də Bakı şəhərində beş erməni terrorçusu Qafqaz xalqları arasında dostluq əlaqələri ruhunda çıxış edən knyaz M.A.Nakaşidzeni və Q.Takiyeşkini qətlə yetirdilər. Bu hadisəni şahid R.R.Subinski öz xatirələrində göstərmişdir. O dövrün məlumatlarına əsasən, qatillərdən biri Dro ləqəbli Drastamat Kanayan olmuşdur. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc əhaliyə- türklərə, kürdlərə, azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldurları 1905-ci il mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarışıqlıqdan istifadə erməni saqqallıları on bir vətəndaşı- 4 qadın, 2 uşaq və 5 kişini qətlə yetirdilər. Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan torpağına hücum edərək dinc əhaliyə divan tutdular. Çoxlu sayda qadın, qoca və uşağı öldürdülər. Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürmüş, evlərə od vuraraq yandırmışlar. Bütün silah növləri ilə təmin olunmuş erməni quldur dəstələri 1905-ci il iyunun 2-də Mənkus müsəlman kəndinə hücum etmişlər. Silahsız kəndlilər ailələrini götürüb qaçmağa məcbur olmuşlar. Kənddə qoca və əlil olan 80 yaşlı bir sakin erməni quldurlarının əlinə keçmişdir. Erməni quldurları şişləri qızdıraraq işgəncə verməklə onu öldürmüşlər. Ermənilər bu vəhşilikləri 1988- 1989-cu illərdə Ermənistan torpaqlarından qovulan azərbaycanlılar üzərində də həyata keçirmişlər. Erməni daşnak dəstələri 1905-ci ilin iyunun 8-də İrəvan yaxınlığındakı Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almış, buranı işğal etdikdən sonra kişilərin başlarını kəsmiş, südəmər uşaqları süngülərə keçirmişlər. Bu basqın zamanı kəndin məscidi yandırılmışdır. Ermənilər ertəsi gün Eçmiədzin qəzasındakı Peçsi, Nazrevan, Kiçik kənd, Kötüklü, Qoşabulaq və İrgü azərbaycanlı kəndlərini də yandırmış, məscidlərə od vurmuş və insanlığa yaraşmayan hərəkətlər edərək murdarlamışlar.

## Erməni daşnak dəstələri öz çirkin əməllərindən əl çəkməyərək...

Erməni daşnak dəstələri öz çirkin əməllərindən əl çəkməyərək 1905-ci ilin avqustun sonlarına yaxın Bakı əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər. 1905-ci il avqustun 8-də 300-dən çox erməni daşnakı Şuşa qəzasının Vənd kəndinin karvan dəstələrinə hücum etdilər. Çoxlu tacir öldürüldü, əmlakları talan edildi. Kəndin sakini Abbas bəyin oğlunu, qardaşını və bir neçə nökər-naibini qətlə yetirdilər. Onların törətdikləri qanlı qırğınların məqsədi isə yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. Ermənilərin piyada və süvari dəstələri 1905-ci il oktyabrın 3-də Azərbaycanın Sırxavənd müsəlman kəndinə hücum təşkil etdilər. Dəstəyə quldur terrorçu Hamazasp başçılıq edirdi. Kənd az vaxt içində insan meyitləri ilə doldu. Uşaqları bir yerə yığaraq kütləvi halda öldürdülər. Azərbaycan xalqının başına gətirilən soyqırımı haqqında ümummilli liderimiz Heydər Əliyevin verdiyi fərmanda qeyd edildiyi kimi: "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Onların Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı qətlə yetirildi. Erməni terrorçu dəstələri 1905-ci il noyabrın 21-də Tiflis əhalisinə də qanlı və amansız divan tutaraq onları vəhşicəsinə qətlə yetirmişlər. Qırğında çoxlu sayda azəri türklərini də işgəncələrlə öldürmüşlər. 1906-cı il yanvarın 1-də erməni daşnak dəstələri azərbaycanlı kəndi Papravəndə hücuma keçdilər. Kənd işğal olundu, kişilərin başları kəsildi, hamilə qadınların qarnı qılıncla yarıldı, hələ dünyaya gəlməmiş körpələrin boyunları vuruldu. Qırğına daşnak, qulağı kəsik Andronik Ozanyan başçılıq edirdi. Hələ ötən əsrin əvvəllərində Rusiyanın Ərzurumdakı konsulu general Q.Mayevski onun haqqında yazmışdı: "1901-ci il qışın əvvəllərində Andronik adlı birisinin erməni quldur dəstəsi Muş həndəvərində peyda olmuşdur"

## Erməni vəhşiliyi dünyaya qarşıdır

Maraqlıdır ki, özlərini ariyalı iranlılarla bir irqdən bilib onları qan qardaşı adlandıran erməni daşnakları 1905-ci ilin fevral ayında Bakıda, Tiflisdə, Şuşada qırğınlar törədir, hətta Cənubi Azərbaycandan gələn soydaşlarımızı öldürməkdən belə çəkinmirdilər. Məlum olduğu kimi, 1905-ci ildə Bakının neft mədənlərində çalışan fəhlələrin 25 faizindən çoxu məhz Cənubi Azərbaycandan gəlmiş Azərbaycan türkləri idi. Tarixi mənbələrə görə, XVIII əsrin 1-ci yarısında İrəvanın 65 yaşayış məntəqəsində müsəlmanlar, 4 məntəqəsində isə ermənilər yaşayırdılar. Məhəmmədzadə Mirzəbala yazır ki, I Dünya müharibəsindən öncə bütün dünyada mövcud olan ermənilərin 1 milyon 100 min nəfəri Qafqazda, 100 min nəfəri İranda, 400 min nəfəri Türkiyədə yaşayırdı. 1988-ci ildən erməni silahlı birləşmələrinin Qarabağa soxulması və sonrakı illərdə Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi, 1 milyondan çox azərbaycanlının qaçqın düşməsi, on minlərlə soydaşımızın öldürülməsi, Xocalının yerlə yeksan edilməsi bizdən keçmişə diqqət yetirməyi, səhvləri təkrar etməməyi, unutqanlığı birdəfəlik yaddan çıxarmağı tələb edir. 1988-ci ildə azərbaycanlıların öz doğma torpaqlarından deportasiyası silah gücünə həyata keçirildi. Ermənistan Ali Sovetinin 1988-ci il 22 noyabr sessiyasının məxfi tapşırığına əsasən, noyabrın 22-dən 28-dək bu ərazinin 22 rayonundakı 170 təmiz və 94 qarışıq yaşayış yerindən 230 mindən artıq azərbaycanlı, 18 min müsəlman kürdü, min nəfər rusdilli əhali erməni saqqallılarının silahlı dəstələri tərəfindən zorla qovuldu. Bu deportasiyaya məruz qalanların 255 nəfəri



vəhşicəsinə qətlə yetirilmiş, minlərlə uşaq, qadın, qoca yaralanmış, on minlərlə ailənin əmlakı çapılıb talan edilmişdir.

## Ermənilərin Qafqaza köçürülməsi terroru yaymağa hesablanmışdı

Xaricdən köçurulən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirdi. Beləliklə, İrəvan əyalətində 4559 ailə (23588 nəfər), Naxçıvan ətrafında 2137 ailə (10652 nəfər), Ordubad dairəsində 250 ailə(1340 nəfər) yerləşdirildi. Nəticədə, əzəli Azərbaycan torpaqları hesabına yaradılan qondarma erməni vilayətinə 35560 nəfərdən ibarət erməni ailəsi köçürüldü. Rusiya ilə İran arasında bağlanmış Türkmənçay muqaviləsinin 15-ci maddəsinə görə rus çarizminin təkidi ilə İranda yaşayan ermənilərin Azərbaycan ərazisinə köçürülməsi rəsmiləşdirildi.1829-cu il sentyabrın 2-də Osmanlı imperiyası ilə Rusiya arasında imzalanmış Ədirnə sülh müqaviləsinin 13-cü maddəsinə əsasən, Osmanlı ərazisində yaşayan ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsinə başlanıldı. Ermənilərin bu ərazinin yerli əhalisi deyil, gəlmə olduqlarını başqa xristian qaynaqları ilə yanaşı, elə erməni mənbələri də təsdiqləyir. Türkmənçay müqaviləsinin imzalanmasının (1828-ci il 20 mart) ertəsi günü rus çarı I Nikolay "erməni vilayəti" yaradılması barədə fərman verdi. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə İran hökuməti müharibə vaxtı öz dövlətinə xəyanət edərək ruslara qulluq etmiş şəxslərin (əsasən, ermənilərin) Rusiya işğalı və tabeliyində olan torpaqlara köçürülməsinə əngəl törətməməli idi. Belə bir vaxtda 1827-ci ilin mayında rus generalı Paskeviçin xüsusi tələbnaməsi əsasında ermənilər arasında nüfuz sahibi olan polkovnik Lazerev (Qazaros Lazaryan) köçürülmə işlərinə rəhbərlik etmək üçün Təbrizə komendant təyin edildi. Rus ordularının Təbrizə basqını zamanı (13 oktyabr) Lazerevin çağırışından riqqətə gələn ermənilər yenə də xəyanət edərək Təbrizin darvazalarını rus ordusunun üzərinə açdılar. Köçürülən kasıb erməni ailələrinə kömək etmək üçün rus dövlətinin xəzinəsindən 25 min rubl gümüş pul ayrılmışdı.1828-ci il dekabrın 24-də Lazerevin Paskeviçə yazdığı yekun hesabatında göstərilirdi ki, köçürmə işi 1828-ci il dekabrın 24-də Lazerevin Paskeviçə yazdığı yekun hesabatında göstərilirdi ki, köçürmə işi 1828-ci il fevralın 26-da başlamış və iyunun 11-də başa çatmışdı. Lazerev 1828-ci il martın 9-da Paskeviçə yazdığı raportunda qeyd edirdi ki, artıq 4500 erməni ailəsi köçürülərək Araz çayının İran tərəfindəki sahilinə gətirilmişdir.1828-ci il mayın 26-da Gürcüstandakı baş qərargah rəisinə təqdim edilən raportda isə bildirilirdi: "Rusiyaya məxsus olan vilayətlərə xristianların köçürülməsi müvəffəqiyyətlə aparılır. Artq Qarabağda 279, İrəvan vilayətində isə 948 ailə məskunlaşdırılmışdır. Polkovnik Lazerevin vədinə əsasən köçürülən ailələrin sayı 5minə çatdırılmısdı. İ.Şopenin yazdığına görə, İrandan köçürülən ermənilərdən yalnız 366 ailə(1725 nəfər)İrəvan sahəsinin özündə 265ailə (1110 nəfər) Naxçıvan şəhərində və 36 ailə (482 nəfər)isə Ordubad ərazisində məskunlaşdırıldı. Xaricdən köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində,Naxçıvan əyalətinin 61 kəndində,Ordubad dairəsinin 11 kəndində yerləşdirildi. Beləliklə,İrəvan əyalətində 4559 ailə(23588 nəfər), Naxçıvan ətrafında 2137 ailə (10652 nəfər),Ordubad dairəsində 250 ailə (1340 nəfər) yerləşdirildi. Nəticədə, əzəli Azərbaycan torpaqları hesabına yaradılan qondarma erməni vilayətinə 35560 nəfərdən ibarət erməni ailəsi köçürüldü. Lazerevin hesabatından məlum olur ki, 3 ay yarım ərzində İran ərazisindən xristian-erməni ailəsi İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşsür ki, bu da ən azı 40 min nəfər demək idi. Həmin illərdə Rusiya dövlətinin xəzinəsindən 14 min manat qızıl və 400min manat gümüş pul xərclənmişdi. Bununla yanaşı, rus tədqiqatçısı N.Smirnov İrandan 90 min ermənininin köçürülərək Azərbaycan ərazilərində məskunlaşdırıldığını yazır. Tarixi hadisələrin sonrakı gedişi bir daha sübut etdi ki, İran erməniləri Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə-yeni vətən yaratmaq məqsədilə köçürülmüşdü. Bu işləri həyata keçirməkdə xüsusi canfəşanlıq göstərən hərbçilər və din xadimləri rus çarizmi tərəfindən mükafatlandırılırdılar. II Rusiya-İran müharibəsində qələbə çalan rus qoşunları 1828-ci il iyunun 14-də Paskeviçin komandanlığı altında Gumru yaxınlığında 12 minlik qoşunla Arpaçaydan Şərqi Anadoluya hücuma başladı. İyunun 23-də Qars qalası işğal edildi.Rus qoşunları iyulun 24-də Axalkalakını,avqustun 15-də Axiskanı,22-də Ərdahanı,28-də Bəyazidi işğal etdilər.1829-cu ilin yazında müharibənin yenidən alovlanması nəticəsində rus qoşunları Ərzurumu,daha sonra Muşu,Oltunu və Bayburtu işğal etdilər. İrəvan xanlığından-öz ata-baba yurdlarından didərgin salınan azərbaycanlılar ən çox Şərqi Anadoluya hücumları zamanı qırğınlara və yenidən bu ərazidən köçkün halına düşməyə düçar olan yenə də azərbaycanlılar idi. Onlar bu dəfə də əsasən Türkiyənin içərilərinə köçməyə məcbur oldular. 1829-cu ilin avqustunda rus qoşunları Balkan ətrafından İstanbula irəliləyərkən II Sultan Mahmud Rusiya dövlətinə barışıq təklif etdi. Bu addım 1829-cu il sentyabrın 2-də Ədirnə muqaviləsinin bağlanması ilə nəticələndi.Axalkələk qalası və Axıska şəhəri Rusiyaya birləşdirildi. Ruslar tərəfindən işğal edilmiş Qars,Trabzon,Bəyazid və Ərzurum paşalıqları isə Turkiyəyə qaytarıldı.Ədirnə sülhünün 13-cü maddəsinə əsasən, Türkiyənin işğal olunmuş torpaqlarındakı ermənilərə 18 ay ərzində daşınan əmlakları ilə bərabər Rusiya təbəliyinə keçmək hüququ verilmişdi.Turkiyədə yaşayan erməniləri yenicə işğal olunmuş Azərbaycan ərazilərinə köçürmək, həmçinin Türkiyə ilə sərhədboyu ərazilərdə də ermənilərin say üstünlüyünü təmin etmək məqsədilə 1829-cu il oktyabrın 10-da Paskeviç rus imperatoru I Nikolaya raport yazıb Ərzurumda və Qarsda yaşayan ermənilərdən 10 min nəfərin Gürcüstanda və "erməni vilayətində"yerləşdirilməsinə icazə istədi.1829-cu il noyabrın 18-də hərbi nazir Çernişev Paskeviçə çar I Nikolayın onun tərəfini bəyəndiyini bildirdi.Türkiyənin Qars və onun ətrafından köçürülən ermənilər yaşadıqları ərazilərin iqliminə uyğun olaraq Ələyəz(Alagöz) dağı ətrafındakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi.Rus general-mayoru Bercman Qarsdan Gumruyə yola salınan 400 erməni ailəsinə sənəd təqdim etdiyini bildirdi.İrəvan yaxınlığında Sərdarabad qalasında olan 270 ev həmin vaxt ermənilər tərəfindən zəbt edilmişdi.Bir qədər keçdikdən sonra M.Vladkin ermənilərin bu əraziyə köçürülməsi haqqında yazrdı:"İrəvan quberniyasında yaşayan ermənilərin əksəriyyəti buranın yerli sakinləri olmayıb,1830-cu il yanvarın 22-də Paskeviçin Çernişevə verdiyi məlumata görə, Qars və ətraf ərazilərdən köçən 2500 erməni ailəsi onun sərəncamına əsasən yaşadıqları yerin iqliminə uyğun olan Ələyəz dağı ətrafında-Pəmbək distansiyasındakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi.Türkiyədən köçürülən ermənilər Axiska, Pəmbək-Şorəyel və "erməni vilayətində"yerləşdirildi. Talış mahalı, Göyçə gölü ətrafı və Baş Abarana 14044 erməni ailəsi köçürülmüşdü.Ərzurumdan köçürülən 7288 erməni ailəsindən 500-ü, eləcə də Ərdahandan 67 erməni ailəsi Axıska padşahlığı ərazisində,1050 ailə Borçalı distansiyasında və Çalqa ətrafında, qalan 1305 ail isə Pəmbək və Şorayel distansiyalarında yerləşdirilmişdi. Hesablama komissiyasının sayına görə Osmanlı dövlətinin torpaqlarından 84 min nəfərdən artıq erməni və yunan köçürüldüyü məlum oldu. Lakin 1831-ci il aprelin 24-də qraf Paskeviç adına verilmiş əlahəzrətin buyuruğunda rus dövləti tərəfindən Türkiyə vilayətindən köçürülmüş xristianlar, yəni erməni və yunanlardan ibarət 14 mindən çox ailə(90 min nəfərə qədər) üçün 380 min gümüş pulun ayrıldığı bildirildi. İ.Şopenin apardığı siyahıyaalmanın nəticələrinə görə 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra "erməni vilayətinə" Türkiyədən 21666 nəfər(3682 ailə)erməni, 324 nəfər(67 ailə) yezidi kürdü köçürülmüşdü. Rusiya imperatorunun fərmanı ilə "erməni vilayəti" yarandığı vaxt İrəvan əyalətində İrəvan, Sərdarabad, Şərur və Surməli dairələri yaradıldı. Mənbələr ,arxiv materialların saxlandığı Matendaranda sənədlərə istinad edən N.A.Tavakalyan İrandan köçürülən ermənilərin sayının 8510 nəfər olduğunu qeyd edirlər. 1834-cü ilin kameral təsvirinə görə bütövlükdə İrəvan əyalətində 22336 ailə var idi ki, bunun da 65300 nəfərini kişi cinsi təşkil edirdi. Bunların 29690 nəfəri tatar, yəni Azərbaycan türkləri, 10350 nəfəri əvvəllər köçürülmüş ermənilər və 24255 nəfəri İran və Türkiyədən yenəcə köçürülən yezidi türkləri, az qismi isə boşa adlanan qaraçılardan ibarət idi. 20 cilddən ibarət həmin siyahıyaalmanın nəticələri İ.Şopenin 1852-ci ildə nəşr edilən "Erməni vilayətini Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi" adlı əsərində verilmişdi. Bu siyahıyaalmaya görə müharibədən sonra erməni vilayətində mövcud olmuş 752 kənddən 521-i İrəvan əyalətinə, 179-u Naxçıvan əyalətinə, 52-si isə Ordubad dairəsinə aid idi. Siyahıyaalmanın nəticələrinə görə köçürülən vilayətlərdə 81749 nəfər müsəlman, 25151 nəfər erməni qeydə alınmışdı. Beləliklə, XIX əsrin 20-30-cu illərindən başlayaraq Cənubi Qafqazın etnik xəritəsində yeni toplum-erməni toplumu peyda oldu. Nəticədə terror daha da yayılmış oldu ki, bundan da ən çox əziyyət çəkən Azərbaycan dövləti və xalqı oldu. Bu gün də erməni terroru davam edir və günahsız Azərbaycan övladları qətliamlara məruz qalır. Dünya birliyi ənənəsinə uyğun olaraq erməni terroruna susur. Çünki özləri yetişdikləri erməni terrorunu dayandırmaqda maraqlı deyillər. Ancaq unudurlar ki, erməni terror sərhəd və xalq tanımadığı üçün bir gün onlarında başının üstünü kəsdirəcək və bu halda erməni terroruna dəstək verməklə yanlışlığa yol verdiklərini anlayacaqlar. O zaman isə artıq gec olacaq.

**İ.ƏLİYEV**

# Möhkəm təmələ əsaslanan İQTİSADİYYAT

**Hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil iqtisadiyyatın yüksək olmasıdır. Bəli, güclü iqtisadiyyat güclü dövlət deməkdir. Dövlət başçımızın dediyi kimi: "İqtisadi müstəqillik əldə edilmişdir və biz məhz buna görə siyasi müstəqillik əldə etmişik, beynəlxalq müstəvidə müstəqillik əldə etmişik.**

Heç kim bizim iradəmizə təsir edə bilməz, heç kim bizə heç nəyi diktə edə bilməz, heç kimdən asılı deyilik və əminəm ki, heç vaxt heç kimdən asılı olmayacağıq. Asılı olsaydıq, Qarabağ bu günə qədər işğal altında idi. Ona görə iqtisadi müstəqillik əsas amillərdən biridir və burada da böyük nailiyyətlər var. Ona görə iqtisadi sahədə aparılan islahatlar imkan verdi ki, 6 ayda vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığıldı. Nə üçün?







Çünki şəffaflıq var, dürüstlük var, hesabatlılıq var". Göründüyü kimi, göstərilən rəqəmlər bir daha Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu təsdiqləyir. Dövlət başçısı müşavirədə bunu bildirmişdir: "Gələn il görüləcək işlər əminəm ki, ölkəmizi daha da gücləndirəcək. Biz verdiyimiz bütün vədlərə həmişə sadiq olmuşuq, vədlərə əməl etmişik. Azərbaycan xalqına nə vəd vermişiksə, onu yerinə yetirmişik - bütün sahələrdə, o cümlədən iqtisadi və sosial sahədə. Əminəm ki, biz bundan sonra da həmişə öz sözümüzə sadiq olacağıq, istədiyimizə nail olacağıq. Arzularımız da odur ki, ölkəmiz güclənsin, xalqımız daha yaxşı yaşasın".

### HEÇ BİR YERDƏN HEÇ KİM BİZƏ BİR MANAT YARDIM ETMƏYİB, HAMISINI ÖZÜMÜZ EDİRİK

"Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik". Bu gün işğaldan azad olunmuş torpaqlarda aparılan möhtəşəm yenidənqurma işləri də ölkənin iqtisadi qüdrətinin daha bir nümayişi kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyevin dediyi kimi, heç bir yerdən heç kim bizə bir manat yardım etməyib. Azərbaycan öz gücünə, öz imkanları hesabına şəhərlər salır, kəndləri yenidən qurur, binalar tikir. İşlərin miqyası bütün dünyanı, sözün əsl mənasında, heyrətə gətirir. Həmçinin, son dövr ərzində ölkədə orta əməkhaqqı 14 faiz, pensiyalar 10 faizdən çox artıb. Bütün bu artımların mənbəyi isə dövlət büdcəsidir. Həm də nəzərə almaq lazımdır ki, ölkənin büdcəsi təkcə neftin qiymətinin artması nəticəsində böyüməyib. Dövlət başçısının dediyi kimi, büdcənin böyüməsi dürüstləşmə və aparılan uğurlu islahatlar nəticəsində mümkün olmuşdur. Həmçinin, iqtisadi sahədə aparılan islahatlar nəticəsində ilin ilk 6 ayı ərzində vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığıldı. Biznes dairələrinə imkan verildi ki, onlar kölgə iqtisadiyyatından çıxsınlar. Nəticə həqiqətən də uğurlu oldu. İqtisadi artım 6,2 faiz, o cümlədən qeyri-neft sektorunda artım 9,6 faiz oldu. Həmçinin hesabat dövrü ərzində əhalinin gəlirləri təxminən 20 faiz artıb. Bütün bunlar Azərbaycan iqtisadiyyatının davamlı inkişafının bariz göstəriciləridir.




### DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ YENİ HƏDƏFLƏRƏ DOĞRU

Sözsüz ki, Azərbaycan postmüharibə dövründə bütün çağırışlara hazırlıqlı olduğunu nümayiş etdirir. 2022-ci ilin altı ayının nəticələri və göstəriciləri də bu reallığı təsdiqləyir. Prezident İlham Əliyev istər cari ilin birinci rübünün yekunlarına, istərsə də 6 ayın yekunlarına həsr olunan müşavirədə bir çox mühüm məsələlərə toxunmaqla, çox vacib mesajlar da verdi. Belə ki, bu dövrdə dünyanın bir çox ölkələrinin rəhbərləri ilə mühüm görüşlər keçirilib və zəruri sazişlər imzalanıb, son 1 il 8 ayda Azərbaycan xalqının rifahının yaxşılaşdırılması üçün sosial islahatlar həyata keçirilib.

### XARİCİ SİYASƏT SAHƏSİNDƏ ƏLDƏ EDİLMİŞ UĞURLAR DAHA BÖYÜK MİQYASI İLƏ SEÇİLİB

Bu ilin 6 ayının yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev ölkəmizin xarici siyasətdə daha çox fəal olduğunu, beynəlxalq nüfuzunun daha da artdığını söyləyib və vurğulayıb ki, bu, ilk növbədə, Qoşulmama Hərəkatına Azərbaycanın uğurlu sədrliyində öz təsdiqini tapıb. "Bizim sədrliyimiz bildiyiniz kimi, 2023-cü ilə qədər yekdil fikirlə bir il uzadılıb. Bu, onu göstərir ki, ölkəmiz 120 ölkə arasında çox böyük nüfuz qazanmışdır və bizə olan inam bu illər ərzində daha da artmışdır. Biz də məsuliyyətli ölkə olaraq və Qoşulmama Hərəkatının fəal sədri olaraq bu təsisatın institusional inkişafına da böyük töhfə vermişik. Önəmli addımlardan biri bu il Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin toplantısı və Parlament Şəbəkəsinin yaradılması idi. Bakıda keçirilmiş bu önəmli tədbir bir daha göstərdi ki, bu Hərəkatın çox böyük potensialı var, həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün bu, çox önəmli platformadır", - deyən Prezident İlham Əliyev, əslində, sadalanan addımlar fonunda bu Hərəkatın gələcəkdə beynəlxalq təşkilata çevrilməsinin mümkünlüyünün anonsunu vermiş oldu. Bu reallığın formalaşmasında Azərbaycanın sədr dövlət olaraq oynadığı rola toxunan dövlətimizin başçısı, xüsusi olaraq qeyd etdi ki, COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsində, bu kontekstdə ehtiyacı olan 80-dən artıq üzv ölkələrə iqtisadi, maliyyə və humanitar yardımların göstərilməsində ölkəmizin xidmətləri kifayət qədər böyükdür. Azərbaycan Prezidentinin müşavirədə yaxın tərəfdaş olaraq beynəlxalq təşkilatlar sırasında Türk Dövlətləri Təşkilatının adının da xüsusi qeyd edilməsinin ciddi əsasları var. İlk öncə bu qurumun yaranması və inkişafında Azərbaycan müstəsna rola malikdir. İkincisi, bu təşkilatın üzv dövlətləri ilə Azərbaycanı müttəfiqlik və strateji tərəfdaşlıq münasibətləri bağlayır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Türkiyə Prezidenti ilə cari ildə 3 dəfə görüşüb, apreldə Qırğızıstan Prezidentinin Azərbaycana, iyunda isə dövlətimizin başçısının Özbəkistana və Türkmənistana səfərləri olub. Sadalanan səfərlərin sayı və qarşılıqlı təmasların intensivliyinin özü bir göstəricidir. Həqiqətən də əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş mükəmməl xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən varislik prinsipinə sadiqlik, kreativlik və innovativ yanaşmalar hesabına uğurla davam etdirilməsi sayəsində ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmlənib. Bütün bunlar bir daha onu təsdiqləyir ki, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul edilir. Azərbaycan Prezidenti İlham Əliyev dünya miqyasında mahir diplomat, Müzəffər Ali Baş Komandan və nəhəng siyasi lider kimi tanınır.

Bir sözlə, müşavirədə açıqlanan göstəricilər ölkəmizin dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləyir. Və bütün bu uğurlu göstəricilər bir daha sübut edir ki, sözünə sadiq, sözü imzası qədər dəyərli və keçərli olan Prezident İlham Əliyev vədlərini yerinə yetirir və yetirəcək. Daha güclü Azərbaycan naminə! Bir sözlə, Azərbaycan Prezidentinin 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə çıxışı göstərdi ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər, sahələr üzrə qarşıya qoyulan vəzifələr yüksək səviyyədə icra edilir və bundan sonra da Azərbaycan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün vəzifələri uğurla yerinə yetirəcəkdir. Dövlətimizin başçısının vurğuladığı kimi, "Biz verdiyimiz bütün vədlərə həmişə sadiq olmuşuq, əməl etmişik. Azərbaycan xalqına nə vəd vermişiksə, bütün sahələrdə onu yerinə yetirmişik, o cümlədən iqtisadi və sosial sahədə. Əminəm ki, biz bundan sonra da həmişə öz sözümüzə sadiq olacağıq, istədiyimizə nail olacağıq. Arzularımız da odur ki, ölkəmiz güclənsin, xalqımız daha yaxşı yaşasın!".

***RƏFİQƏ KAMALQIZI***

**Pul mal və xidmətlərin mübadiləsinin ən geniş yayılmış vasitəsidir. Pul sözü, ümumiyyətlə, sikkə və əskinaslara aid olsa da, iqtisadiyyatda tələb olunan depozitlər və kredit kartları da pul qazanma elementləri hesab olunur.**

Pul və xoşbəxtlik arasında müsbət əlaqə var. Günümüzdə bu müsbət əlaqə daha yüksəkdir. Lakin belə bir məsələ də var ki, pulun varlığı daha çox qazanmağa, yəni hərisliyə səbəb olur ki, bu da insana ciddi problemlər yaradır.

Bir araşdırmada göstərilir ki, pul olmadan belə xoşbəxt olmaq olar:

Yuxumuzu almaq.
İşimizə yaxın evdə yaşamaq.
Təmiz hava almaq.
Səfər etmək.
Nəfəs almaq.
Gülümsəmək.





# Xoşbəxtliyə aparan yol nələrdən keçir?

ARAŞDIRMA



Zehni rahatlıq üçün stresin öhdəsindən gəlməyin yollarını öyrənmək.

Düşünürəm ki, pulsuz səfər etmək mümkün deyil. Adi gün ərzində evdən çıxmaq belə pul deməkdir, qalmışdı ki, səfər etmək. Səfər etdikdə yola çıxmaq üçün yol pulu, yolda ən azından yemək yemək, gedəcəyimiz yer üçün ərzaq almaq da pulla mümkün olacaq məsələlədir. Nəticədə heç kim bizə pulsuz səfər etmək üçün ərzaq və ya yolpulu verməyəcək.

İşimizə yaxın evdə yaşamaq söhbətinə gəldikdə isə bu gün əksər iş yerləri şəhərin mərkəzindədir. Mərkəzdə olan evlərin qiyməti də hamıya məlumdur. Buradan da dönüb-dolaşıb pul məsələsinə gəlirik.

Daha sonra gülümsəmə məsələsi var. Yəni, pulsuz gülümsəmək olur? Evdə uşağının çox istədiyi bir şeyi pulu olmadığı üçün ona ala bilməyən ata axşam o evə gələrkən necə gülümsəsin?! Yaxud azyaşlı uşağı ilə marketə düşən ana körpəsinin istədiyi şokoladı ona ala bilmirsə necə xoşbəxt ola bilər?! Bunların da başında maddiyyat və pul dayanır.



Bəzən hələ çox gənc olan cütlüklər də deyir ki, pul hərşey deyil, əsas sevgidir. Siz heç dilənçiyə aşiq olan birini görmüsünüz? Bu 99 faiz mümkün deyil. Gənclər evləndikdə sevsələr belə, qarşı tərəfin maddi vəziyyətini də nəzərə alır. Bu gün bir çox boşanmaların səbəbi pulsuzluqdur. Əgər evdə qadın işləmirsə və bütün maddi-mənəvi yük kişinin üzərinə düşürsə, bu, ikiqat problemdir.

İnsana xoşbəxt olmaq üçün nə lazımdır? Pul faktorunun buradakı yeri nə qədərdir? SİA mövzu ilə bağlı ekspert, sosioloq və psixoloqların fikirlərini öyrənib.

Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə: "Xoşbəxtlik nisbi anlayışdır, insana görə dəyişir. Cavan olanda əksəriyyətimiz



xoşbəxtliyi var-dövlətdə, pulda axtarırdıq. Müəyyən yaşa dolandan sonra arzumuzun ünvanı dəyişdi. Həyat sübut etdi ki, insanın canı sağ-salamat olmayandan sonra pul da, var-dövlət də heç nəyə yaramır. Amma xoşbəxt olmaq üçün bunlar da bəs etmir.

Ləyaqətli insan özü ilə yanaşı, ailə üzvlərinin, əzizlərinin, doğmalarının, qohumlarının, bir sözlə, tanıdığı hər kəsin xoşbəxt olmağını arzulayır. Yəni xoşbəxt olmaq təkcə özümüzdən asılı deyil. Əgər canı canımızdan, qanı qanımızdan olan insanlar dərd-qəm içindədirlərsə, bir dəfə üzləri gülmürsə, biz necə xoşbəxt ola, deyib-gülə, şənlənə bilərik? Məncə, fərdlərin xoşbəxtliyi həm də cəmiyyətin xoşbəxtliyi ilə bağlı olan məsələdir. Buna görə də hamılıqla yaşadığımız ölkədə hər kəsin xoşbəxt olması üçün çalışmalıyıq. Sovet dövründə insanların beyninə yeritmişdilər ki, pul əl çirkdir. Məncə, pul halal yolla qazanılanda, nəcib işlər üçün sərf olunanda, heç də çirkin bir şey deyil. Çoxlu pul xoşbəxtlik gətirmir, amma dəhşətli yoxsulluq bədbəxtlik gətirir. Çox adam ona görə xoşbəxt deyil ki, sadəcə, xoşbəxt olmağı bacarmır.

Hazırda məzuniyyətdəyəm. Yay tətilini ailəmlə birlikdə İsmayıllı rayonunun məşhur Qalacıq kəndində keçiririk. Səhər-axşam övladlarımla birlikdə çay kənarında gəzir, meşədə quşların şirin nəğməsini dinləyə-dinləyə böyürtkən yığırıq. Bu sadə həyat tərzi bizi ailəlikcə xoşbəxt edir. Demək istədiyim odur ki, xoşbəxt olmaq çətin deyil. Yetər ki, azla qane ola biləsən".

**Psixoloq Fərqanə Mehmanqızı:** "Xoşbəxtlik nisbi anlayışdır. Bu, həyat tərzindən, xarakterdən, həyata baxışdan qaynaqlanır. Ona görə də xoşbəxtliyin qanunu yoxdur.



Ümumi ana xətt budur ki, insan nəylə rahatlıq tapırsa, onun üçün xoşbəxtlik budur. Bəziləri üçün övladları, digəri üçün maddi sıxıntıların olmamağı, kimin üçünsə karyera, digəri üçün sevdiyi insan, özünün şəxsi rifahı xoşbəxtlikdir. Burada konkret qayda yoxdur.

Xoşbəxtlik anlarla yaşanıldığına görə ümumi deyil. O an sənə nə lazımdırsa və sən onu əldə etmisənsə xoşbəxt olursan.

Maddi güc təbii ki, özgüvən verir. Bu, həqiqətdir. Amma pulun insana nə qədər xoşbəxtlik verəcəyi isə həmin insandan asılıdır".

**Fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub:** "Bu gün müasir dövrdə dünyanın mütərəqqi universitetlərinin tədqiqat mövzularından biri xoşbəxtlik məsələsidir. Bəlkə də bu, bizə bir qədər qəribə görünə bilər. Amma fakt budur ki, bu gün xoşbəxtlik ciddi araşdırma mövzusuna çevrilib. Bu mövzuda müxtəlif sorğular keçirilir və bu sorğular elə ölkələrdə aparılır ki, həmin ölkələr sosial təminat və rifah baxımından ilk onluğa daxil olan ölkələrdir.

Bəs, bu araşdırmalara səbəb nədir? Heç nə səbəbsiz deyil, zəmin var. Məsələ burasındadır ki, müasir dünyada, mütərəqqi cəmiyyətlərin bəzilərində insanlar depressiya yaşayırlar və antidepresan vasitələrin istifadəsi faizi çox yüksəkdir. Məsələn, İsveç, İsveçrə və bu kimi ölkələr.



Xoşbəxtlik məsələsi ciddi mövzudur. Sual olunur ki, insan necə xoşbəxt ola bilər? Bu, çox geniş müzakirə mövzusudur. Bir fakt var və bu fakt ondan ibarətdir ki, xoşbəxtlik yalnız pul və maddi rifahla təmin edilən bir gerçək deyil. Xoşbəxtlik elə bir hiss deyil ki, sırf maddi vəziyyətin düzəlməsi ilə hasil olsun. Belə olsaydı, maddi rifah baxımından yüksək səviyyədə olan ölkələr insanların özünü xoşbəxt hiss etmə indeksinə görə də yüksəkdə olardı. Amma bu belə deyil və həmin ölkələrdə intihar halları da çoxdur.

Əgər insanların özlərini xoşbəxt hiss etmələri maddi vəziyyətə bağlı deyilsə, o zaman bu mənəvi-psixoloji əsaslara dayanır. Biz o zaman özümüzü xoşbəxt hiss edə bilərik ki, maddiyyatdan başqa sahəyə də yönələk. Çünki biz insan olaraq mənəvi-psixoloji cəhətə də sahibik və bunu da unutmayıb təmin etməliyik.

Konkret nəticə budur ki, sırf pulla insan xoşbəxt ola bilmir. Pul vacibdir, amma kafi deyil. Xoşbəxt olmaq üçün təkcə pul yetmir".

***Ayşən Vəli***

# Turizm məkanlarını seçərkən nələrə diqqət yetirməliyik?

**Turizm iqtisadiyyatın ən davamlı inkişaf edən sektoru kimi beynəlxalq xidmət ticarətinin yüksək gəlirli və ən dinamik sektorlarından birinə çevrilib. İnvestisiyaların səmərəliliyi də daxil olmaqla əsas göstəricilərə görə turizm neft sənayesi ilə müqayisə edilir. Turizm qlobal ümumi məhsulun təxminən 11%-ni, dünya ixracının 6%-ni, qlobal investisiyanın 7%-ni, hər 16-cı iş yeri və bütün vergi gəlirlərinin 5%-ni təşkil edir. Dünyanın bəzi ölkələrində bu rəqəmlər kifayət qədər əhəmiyyətlidir. 1980-ci illə müqayisədə dünya turist axınının tutumu 65%, gəlirləri isə 74% artmışdır.**









Turizm müxtəlif xüsusiyyətlərə malikdir, eyni zamanda iqtisadi, sosial, siyasi, humanitar və digər funksiyaları yerinə yetirir. Təkcə ayrı-ayrı regionlarında deyil, bütün ölkə üzrə iqtisadiyyatın səmərəli sektorudur.

Beynəlxalq turist səfərləri 937 milyon, turizmdən daxilolmaların isə 1,1 trilyon qədər artacağına proqnozlar verilir. 2022 -ci ildə 1,8 milyard insanın məşhur şəhərlərə, məşhur kurortlara və tarix və mədəniyyət abidələrinə səyahət edəcəyi, otel və turizm xidmətlərindən əldə edilən gəlirin təxminən 2 trilyon dollar təşkil edəcəyi gözlənilir. Bu o deməkdir ki, yeni iş yerləri açılacaq, milyonlarla insan işlə təmin olunacaq. Beləliklə, əgər 1998-ci ildə qlobal turizm sənayesində təxminən 115 milyon insan məşğul idisə, 1999-cu ildə - artıq 270 milyon insan, 2022-ci ildə isə 550 milyon iş yeri açılacaqdır. Bütün bunlar onu göstərir ki, turizm dünyada tərəqqinin lokomotividir. Bütün bu məlumatlar turizm sənayesinin fəaliyyətinin birbaşa iqtisadi təsirini xarakterizə edir. Məsələn, 2005-ci ildə yalnız 15 və daha yuxarı yaşda olan avropalılar xaricə 370 milyon səfər edib, onlardan 245 milyonu (66%) bayram və istirahət günlərində, 88 milyonu (24%) dost və ya qohumlarını ziyarət edib, 37 milyonu (10%) biznesin inkişafı üçün səyahətə çıxmışdır.

Turizm qeyri-istehsal sahəsinə aiddir, çünki xidmətlər əsas mübadilə obyektidir və müxtəlif turizm bazarlarında ümumi satışın 80%-ni təşkil edir. Böyük valyuta gəlirləri mənbəyi, ölkə əhalisinin məşğulluğunun təmin edilməsi vasitəsidir. Ölkəyə daxil olan hər bir turist orta hesabla 9 iş yeri yaradır və ev sahibi ölkədə hər səfərə müəyyən məbləğdə pul qoyur.

Turizmdən əldə olunan gəlirlər iqtisadiyyatın 32 sahəsi üzrə müəssisələrə gedir. Turizmin inkişafı yeni ziyarət edilən ərazilərin yaranması hesabına baş verməlidir, çünki dünya turizm bazarının ənənəvi sahələri demək olar ki, rekreasiya imkanları həddinə çatıb. Belə ki, son illərdə işgüzar səfərlər bir qədər artıb və ümumilikdə bazar payını azaldıb.

Azərbaycan turizm baxımdan kifayət qədər geniş perspektivlərə malik olan ölkə hesab olunur. Ərazisinin nisbətən kiçikliyinə baxmayaraq, turizmin inkişafı üçün yetərli qədər təbii ehtiyatlara, maddi-texniki bazaya və tarixən formalaşmış mədəni irsə malik olması Azərbaycanı potensial turizm ölkəsinə çevirə biləcək amillər hesab olunur. Əlbəttə ki, bunlarla yanaşı, bu sahədə dövlət dəstəyi əsas məsələlərdən biri hesab olunur. Son 10 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə turizm sahəsində bir sıra islahatlar aparılmışdır.

Azərbaycan Turizm Assosiasiyasının sədri Əhməd Qurbanov SİA-ya açıqlamasında 2020-ci ildən başlayaraq ölkəmizdə və dünyada pandemiya baş verəndən sonra bir çox sahələrdə ciddi ziyan dəydiyini qeyd edir.

Ən çox ziyan görünən sahələrdən biri də turizmdir. Turizm sıfır vəziyyətinə gəlib çatdı. Ölkədə sərhədlər bağlandı. Bütün bunları nəzərə alaraq 2020-ci ili turizm üçün əlverişsiz bir il kimi dəyərləndiririk. Sonradan 2021-ci ildə mərhələli şəkildə müəyyən irəliləyişlər oldu, qapanmalardan azad olunduq. Bununla əlaqədar həm ölkəyə gələnlərdə, həm də ölkədən çıxan turistlərdən artımlar müşahidə elədik. Amma yenə də bu kifayət etmir, əldə olan göstəricilər çox az idi. 2022-ci ildə isə artıq 100-dən artıq ölkə ilə sərhədlərimiz açıqdır və hava yolları da açılıb. Həmçinin ölkədaxili turizmdə böyük canlanma müşahidə edirik. Pandemiyadan önçəki illəri, yəni 2019-cu il ilə müqayisə elədikdə biz hazırda turizmin canlanmasında həmin səviyyəyə çata bilməmişik. Əlimizdən gələni edirik ki, bu sayı maksimuma çatdıraq. Həmin ildə 3 milyona qədər turist gəlmişdir, növbəti illərdə bunun 2 və ya 3 qatını artırmağı planlaşdırırdıq, amma təssüflər olsun ki pandemiya bu işləri biraz yubatdı. Amma qarşıdakı illərdə nəzərdə tutduğumuz rəqəmlərə çatdıracağımıza proqnoz verə bilərik. Bu il insanlar daha çox bölgələrə istirahətə gedirlər və mən deyərdim ki, Şəki, Şamaxı, İsmayıllı, Qəbələ kimi bölgələr daha çox turistlərin marağına səbəb olur. Bu da ona görədir ki, bu rayonlar paytaxta daha yaxındır. Öncələr Quba, Qusar, Xaçmaz zonalarında da turizm axını çox idi, lakin hazırda orda yol təmir işləri həyata keçirildiyi üçün insanlar biraz uzaqlaşıb sadaladığım bölgələrə üz tuturlar. Axın edən insanların sayı bölgələrə görə dəyişir. Hal-hazırda ölkə daxilində istirahət edən turistlərimiz xaricə gedənlərdən çoxdur. Həftəsonları monitorinq aparılan zaman görürük ki, otellərin sayı maksimum həddə çatır. Hətta elə bölgələr olur ki, ümumiyyətlə yer tapmaq mümkün olmur. Bu baxımdan götürsək həm həftə sonları, həm həftə içləri məzuniyyətə çıxanlar olur ki, onlar məhz daxili turizmə daha çox üstünlük verirlər. Pandemiyadan sonra özləri də şahid oldular ki, ölkədə istirahət daha sərfəli, rahat və yaxındır.



Ölkəmizdə turizmin inkişafında davamlı şəkildə tədbirlər aparılır. Buna baxmayaraq müəyyən vaxtlarda neqativ hallarla qarşılaşırıq. O qədər dələduzlarla mübarizə aparsaq da belə hallar turizmin inkişafına mənfi təsir göstərir. Ümid edirik ki, yaxın günlərdə yeni qəbul edilmiş qanuna əsasən rezerv xidmətinin fəaliyyəti başlayacaq və bunun meyarları açıqlanandan sonra bu kimi dələduzluq şirkətlərinin qarşısı maksimum dərəcədə alınacaq.

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının prezidenti Ruslan Quliyev isə qeyd edir. Deyə bilərik ki, pandemiya dövründə müxtəlif bazarlara əlaqələrin yenidən qurulması, ikitərəfli virtual görüşlər, sərgilər və digər tanıtım vasitələri bir neçə il də davam etdirilməliydi. Dünyanı çərçivədə saxlayan bu xəstəlik demək olar ki, turizmə də öz mənfi təsirlərini göstərdi. Həm ölkələrarası əlaqələrin məhdudlaşdırılması və eyni zamanda müxtəlif turizm obyektlərinin fəaliyyətlərinin dayandırılması kadr cəhətdən də özünü göstərdi. Uzun illər bu sahədə mütəxəssisləşmiş kadrların yan sahələrə üz tutması halları ilə də qarşılaşdıq.

Bölgələrdən Quba-Xaçmaz istiqaməti, Lənkəran-Astara istiqamətində daha çox intensivlik müşahidə olunur. Müxtəlif festivalların həyata keçirilməsi də bölgələrə gələn turistlərin sayına öz təsirini göstərdi. Belə ki, Gəncə istiqamətində də bir sıra layihələr həyata keçirilir. Hal-hazırda əsasən quru sərhədlərin bağlı olması da ölkədaxili turizm sahəsinə gəlmələrinə mənfi təsirləri var. Bu gün xaricdən ölkəyə gələn turistlərin digər illərlə müqayisədə ilin sonuna kimi artımı gözlənilir. Pandemiya dövründə fürsətlərdən biri o oldu ki, ölkədaxili səyahətlərin sayı artdı. Xaricə gedənlərin sayı çoxluq təşkil etsə də, sezonda biletlərin qiymətlərinin baha olması, həm həftəsonları, həm də bayram günlərində ölkədaxili turizmə yol açmışdır. Hətta yer məhdudluğu hiss olunur. Pakistan, Hindistan kimi körfəz ölkələrindən, İsraildən gələn turistlərin sayında da çoxluq var. Bu sahədə böyük bazarlar Rusiya-Ukraynaya məxsus olduğundan müharibənin də Azərbaycan turizm sahəsinə mənfi təsirləri olmuşdur. 2021-ci illə müqayisədə bu illərdə 25 faiz artım müşahidə olunub. Biz 2019-cu ilin rəqəmlərinə yaxınlaşmalıyıq və qabaqdakı əsas hədəflərdən biri də 2/3 il ərzində 5 milyon turistin gəlişinə imza atmaqdır.

Bəs istirahət bölgələrində yerləşən istirahət mərkəzlərində, hotellərdə vəziyyət necədir?

"Bizdə keçən ilə baxanda bu il turist axını çoxdur həm daimi müştərililərimiz var, həm də hal-hazırda Dubaydan gələn qonaqlarımız çoxdur və hər gün demək olar ki, mərkəzimiz doludur, boş yerlər olmur". Bu sözləri Qusar rayonunda yerləşən məşhur hotellərdə biri "Zam-Zam" otelin meneceri Fərid Babayev bildirib.

"Bizim otel elə də çox müddət deyil fəaliyyət göstərir, təzə açılıb ümumi 8 otaqdır. Oteldəki otaqlar 4 nəfərlik, 3 nəfərlik və 2 nəfərlik otaqlardır. Qiymətlərə gəldikdə isə 2 nəfərlik otaq 90 AZN, 3 nəfərlik-110 AZN, 4 neferlik 130 AZN təşkil edir"-deyə, otelin meneceri bildirib.

Müsahibə aldığımız yerlərdən biri də, Lerik rayonunda yerləşən "Çeşmə" ailəvi istirahət mərkəzidir.

Mərkəzin rəhbəri Satulla Rəhmanov bildirir ki, mərkəzimizdə istirahət edənlər daha çox tur şəklində gəlirlər. Bu təkcə bizim mərkəzə aid deyil, ayrı istirahət mərkəzlərinə, restoranlara gedəndə də Lerik rayonu üzrə daha çox turların təşkil edildiyinin şahidi olmuşuq. Bu hal altı-bazar günlərində daha çox müşahidə olunur. Amma ümumi götürsək tur şəklində gələn turistlər restoran sahibləri üçün elə də əlverişli deyildir. Çünki turlar sadəcə gəzmək, görmək və şəkil çəkdirməyə gəlirlər. Həftəsonları turlar çoxluq təşkil edəndə bəzi restoran sahibləri olur ki, tur şəklində qəbul etmir. Çünki onlar hər şeyi özləri ilə gətirirlər, meşə tərəflərdə piknik eləməyə gələnlər çox olur. Müşahidələrdən görürük ki, gələnlərdən çoxu gəzməyə, buradakı şəlalələrə getməyə, tarixi yerlərə ziyarətlər etməyə üz tuturlar. Yemək zamanı gəlib, sonra təzədən ziyarət edəcək yerlərə qayıdır. 15/20 illik bəzi restoranların tur şəklində qəbul etməməsinə əsas səbəblərdən biri də piknik elmək üçün gedib oturduğu meşənin və ya həmin istirahət mərkəzinə məxsus sahənin çirkləndirməsi və təbiətə ziyan vurmasıdır.

***Havar Şəfiyeva***

# Soçidəki müzakirələrdə DİQQƏTİ ÇƏKƏN MƏQAMLAR

**Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanla rusiyalı həmkarı Vladimir Putin arasında Soçidə 5 avqust tarixində baş tutan görüş bütün dünyanın diqqətini cəlb edib desək, yanılmarıq. Əvvəla ona görə ki, Rusiya-Ukrayna münasibətləri fonunda bütün dünyanın bu görüşü maraqla izləyəcəyi qabaqcadan da bəlli idi. Digər tərəfdən də, bu iki ölkənin bir-biri ilə get-gedə daha yaxın münasibətlər qurması dünya düzəninə əhəmiyyətli dərəcədə təsir etdiyi halda maraq dairəsindən kənarda qala bilməz.**



Doğrudur, Qərb indi Rusiya ilə hansısa ölkənin yaxınlıq etməsinə, münasibətlərini yaxşılaşdırmasına razı ola bilməz və bir tərəfdən sanksiyalar tətbiq etdiyi, digər tərəfdən də rəqib bildiyi bir ölkənin meydanda tək qalmamasına sevinmək fikrində də deyil. Amma mövcud reallıqların fonunda buna qarşı da gələ bilmir. Ona görə ki, Rusiya ilk növbədə böyük bir dövlət ilə, artıq hesablaşmaq məcburiyyətində qaldıqları bir dövlətlə, Türkiyə ilə münasibətlərini yaxşılaşdırır və Qərbin bu münasibətlərə mane olmaq istəyinə düşməsi belə əleyhində səslənə bilər. Həmçinin, Türkiyə ümumilikdə Qərb üçün Rusiya ilə dialoq vasitəsi olduğu da bir həqiqətdir və bununla, bu reallıqla barışmamaq mümkün deyil.

Məsələ burasındadır ki, Türkiyə Prezidenti bu dəfə də Soçidə kimlərin nə düşünəcəyini, Qərbin nə reaksiya verəcəyini nəzərə almadan ölkəsinin iqtisadi, siyasi maraqlarından çıxış edib. İlk baxışdan da görünür ki, Putin-Ərdoğan dialoqunun iqtisadi platformasında daha çox "Türk axını" enerji layihəsi, onun Avropanın qaz təminatındakı rolu ön plana çəkilib. Bu layihənin əhəmiyyəti barədə yəqin ki, hər kəs bilir və Türkiyə üçün bunun iqtisadi baxımdan önəminin daha böyük olduğu da bəllidir. Bununla yanaşı, iqtisadi maraqlar daxilində iki ölkənin birgə layihəsi olan "Akkuyu" atom elektrik stansiyasının tikintisi ilə bağlı fikir ayrılıqlarına son qoyulması da ön planda olub ki, bu, hər iki tərəf üçün fayda gətirəcək bir məqam sayılır.

Daha çox diqqət çəkən məqam isə odur ki, hər iki ölkənin lideri Rusiyadan Türkiyəyə ixrac edilən qazın ödənişinin rublla ediləcəyi barədə razılığa gəlib. Bu məqam ona görə daha çox diqqət çəkir ki, bu addımla ABŞ dollarının hegomonluğunun azalması istiqamətində təsirli addım sayılır. Belə bir addım Rusiyanı da, Türkiyəni də qane edir və bu razılaşma da əbəs yerə əldə edilməyib, hansıki bütün dünya ictimaiyyəti bunu çox dəqiqliklə izləmiş oldu.

Bilirik ki, ərzaq qıtlığı deyilən bir həyacan təbili artıq çalınıb və ələlxüsus taxıl tədarükü, taxıl ehtiyatlarının yaradılması da bütün dünya üçün çox vacib hesab olunur. Çünki bu məsələ bütün dünya üçün maraq dairəsində olan məsələdir. Ərzaq təhlükəsizliyi, taxıl tədarükü və ehtiyatlarının yaradılması hər kəsi narahat edir, halbuki Ukrayna taxıl ixrac edən ölkə olaraq müharibə şəraitində bunu edə bilmir. Belə bir məqamda Ukraynada blokadada qalan taxılın dünya bazarlarına çıxarılmasını təmin etmək çox əhəmiyyətli addımdır. Bunun Türkiyənin beynəlxalq humanitar missiyasının prioritetləri sırasında olduğu da bəllidir və belə bir missiyanın öhdəsindən gəlinməsi Türkiyənin beynəlxalq miqyasda ən uğurlu addımlarından biri sayıla bilər. Nəzərə almaq lazımdır ki, qlobal ərzaq təhlükəsizliyini təhdid edən qarşıdurmaya Türkiyə müvəqqəti də olsa son qoysa, bu, böyük nəticə deməkdir. Bu, həm də Türkiyənin istər Rusiya, istər Ukrayna, istərsə də Qərbin etibarını qazanması deməkdir.

Unutmaq lazım deyil ki, qeyd olunan məqamlar Rusiya üçün də önəmlidir. Bu, ilk növbədə Qərbin sanksiyalarını minimuma endirmək baxımından da Rusiyaya çox lazımdır. Hətta Qərbin sanksiyaları ilə üz-üzə qalan Rusiya üçün əvəzedilməzdir desək belə yanılmarıq. Təbii ki, ən çətin vaxtlarından Rusiyanın məhz Qərbin sanksiyalarından yayınma şansı da ruslar tərəfindən başa düşülür və qiymətləndirilir. Heç şübhəsiz ki, Türkiyənin belə bir yanaşmasına, atdığı addıma Rusiya tərəfi də öz növbəsində adekvat reaksiya verməlidir və bu da münasibətlərin gələcəkdə daha da yaxınlaşacağı proqnozunu söyləməyə əsas verir.

Sözsüz ki, hər nə qədər münasibətlər yaxşılaşsa da, əlaqələr dərinləşsə də, Rusiyanın da, Türkiyənin də bir dövlət kimi öz maraqları ön plandadır və strateji maraqlar hər şeydən öndədir. Bu strateji maraqlar baxımından ölkələrin bir-birinə rəqib kimi də görüməsi adi, normal təzahürdür. Qərb də bu məqamdan istifadə etməkdən çəkinməyə bilər. Lakin Türkiyəyə qarşı yanaşma bir qədər fərqlidir, çünki Türkiyə Qərblə Rusiya arasında bir rabitə kimi qəbul edilir və bu mənada Qərb hələ bu yolu tutmaq niyyətində görünmür. Müşahidəçi mövqedə dayanması da bununla izah edilir.

Əlbəttə, Türkiyənin Ukraynaya göndərdiyi çoxlu sayda "Bayraktar" Rusiyanı narahat etməyə bilməz. İyirmi birinci əsrin müharibələrində həlledici rola malik olan "Bayraktar" hər iki tərəf üçün çox faydalıdır və Putinin də həmin o pilotsuz aparatlardan almaq niyyətində olduğuna kimsənin şübhəsi yoxdur. Məsələ burasındadır ki, Ukraynadan fərqli olaraq, Rusiyaya bu pilotsuz aparatların tədarük edilməsi Türkiyəyə sərf etmir. Əvvəla ona görə ki, qeyd olunduğu kimi, hər iki ölkə strateji maraqlar baxımından rəqib sayılır və həmin o pilotsuz aparatlar, yeni nəsil silahlar Türkiyə üçün fövqəladə üstünlük deməkdir hərbi qüvvələr nisbətində.

Bəli, Türkiyənin qlobal miqyasda nüfuzu durmadan artıq. Bunu bir-birinə rəqib mövqedə olan Qərb də, Rusiyada qəbul edir. Türkiyənin söz sahibinə çevrildiyi günümüzün reallığıdır. Əbəs yerə deyil ki, Rusiya heç zaman olmadığı qədər türkiyəyə yaxın olmağa çalışır. Bununla rəsmi Moskva meydanda tək qalmadığını, hətta yanında böyük bir gücün olduğunu bütün dünyaya bəyan etməkdə davam edir. Bir sözlə, Türkiyə dünyada söz sahibi olan dövlətdir və qardaş ölkənin belə nüfuz, söz sahibi olması Azərbaycan üçün olduqca əhəmiyyətlidir. Hər şeydən öncə bütün dünya Azərbaycanı hal-hazırda Türkiyə üçün ən yaxın, dost ölkə hesab edir ki, bunun əhəmiyyəti olduqca böyükdür. Türkiyənin hər zaman olduğu kimi, Azərbaycana siyasi dəstək göstərəcəyi də təkzib edilə bilməz və bu məqam ölkəmiz üçün çox vacib məqamdır. Ələlxüsus, Cənubi Qafqazda məhz Türkiyənin hərbi-siyasi mövcudluğunun yeni mərhələsinin başlanmaqda olması Azərbaycan üçün təhdidlərin minimuma enməsi, hətta yox olması, təhlükəsizliyinə ən böyük töhvə deməkdir.

***İnam Hacıyev***

# Ermənilər Laçından çıxır

**"Bilirsiz ki, 44 günlük Vətən Savaşından sonra imzalanan üçtərəfli bəyanatın 6-cı bəndinin tələblərinə görə Laçın dəhlizinə paralel yol çəkilib və rus "sülhməramlı" kontingenti də indi həmin yola dislokasiya olunmalıdır. Bu isə indiki Laçın dəhlizi istiqamətində olan ərazilərdən ermənilərin avtomatik olaraq çıxmasını şərtləndirir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.**

Politoloqun sözlərinə görə, buraya təkcə Zabux kəndi deyil, həmin istiqamətdəki bütün kəndlər, o cümlədən də Laçın şəhəri daxildir: "Çünki söhbət Azərbaycan vətəndaşı olan ermənilərdən getmir. Adıçəkilən ərazilərdə yaşayan ermənilər, əsasən, Livan və Suriya erməniləridir. Başqa sözlə desək, söbət sərhədlərimizi qanunsuz keçmiş və qeyri-qanuni olaraq ərazilərimizdə məskunlaşmış ermənilərdən gedir.





Verilmiş vaxtın uzadılması ilə bağlı sualınıza gəldikdə isə, belə cəhdlər artıq var. Bilirsiniz ki, Azərbaycan tərəfi həmin ermənilərin oradan çıxarılması üçün avqust ayının 25-ə qədər vaxt verib. Bunu separatçı rejimin başçısı Araik Arutunyan da təsdiqləyib və Rusiya "sülhməramlılarının" Azərbaycanın xəbərdarlıq məktubu haqda ona xəbər verdiklərini deyib. Erməni tərəf isə köçürülmənin sentyabrın 1-ə qədər baş tutacağını bildirib. Yəni, buradan da ermənilərin artıq indidən 5 gün əlavə vaxt istədikləri məlum olur".



Politoloq sözlərinə əlavə edərək qeyd edib ki, indi əsas məsələ həmin o 5 gün məsələsi deyil, oradan çıxan ermənilərin əmlakımıza zərər verməməsi və növbəti təxribatlara cəhd etməməsi məsələsi olmalıdır: "Belə ki, Kəlbəcərin boşaldılması zamanı bu xəstə təxəyyüllü toplumun evlərimizi necə yandırdıqlarının və tərk etdikləri ərazilərdə çoxlu sayda mina basdırdıqlarının şahidi olmuşuq. Onların bu barbarlığı haqqında çoxlu videogörüntülər var və bütün dünya da bunun şahididir. Odur ki, bu məsələdə diqqətli olmaq və bu cür halların baş verməməsi üçün konkret addımlar atılması vacibdir. İlk növbədə, Rusiya tərəfinin nəzərinə çatdırılmalıdır ki, həmin ərazilərə müvəqqəti nəzarət edən tərəf olaraq ermənilərin köçürülməsi mərhələsində əmlakımıza zərər verməməsini təmin etsinlər və əvvəllər olduğu kimi mina basdırılması kimi terror aktlarına cəhdlərə imkan verməsinlər".

***Qönçə Quliyeva***

# “Erməninin başına vura-vura sülh müqaviləsini imzaladacağıq”

**“10 noyabr Üçtərəfli Bəyanatın tərkib hissəsi olan Laçın dəhlizinə alternativ yolun çəkilişi başa çatandan sonra burada dislokasiya olunmuş rus sülhməramlıları yeni marşruta köçürüləcəklər”. Bu fikirləri millət vəkili Azər Badamov ”Səs” qəzetinə açıqlamasında bildirib.**



Onun sözlərinə görə, artıq bu istiqamətdə işlərə başlanılmış, Laçın və Zabux ermənilərdən boşaldılır: ”Amma bununla yanaşı revanşistlər silahlı mübarizə aparacaqları ilə bağlı ifadələri səsləndirirlər. Qeyd etmək istəyirəm ki, sülhməramlılar Laçın dəhlizi ərazisini tərk edənə qədər oralarda heç bir revanşist qalmayacaqdır. Revanşistlər hazırda ruslara arxayınlaşıb qışqırırlar. Həm də Üçtərəfli Bəyanatın maddələrini Ermənistan öz xoşu ilə icra etmir, Azərbaycan onları məcbur edir. Məsələn, biz alternativ yolun yaxın günlərdə hazır olacağını və yaxın zamanda Laçın dəhlizinin boşaldılmasını deyəndə Ermənistanın rəhbərliyi çəkiləcək yeni marşrutun razılaşdırılmadığını səsləndirərək hələ 2023-cü ilin sonuna qədər vaxtların olduğunu və köçməyəcəklərini demişdi. Sonra da Laçın istiqamətində təxribata əl atdılar. Ali Baş Komandan ”Qisas” əməliyyatının keçirilməsinə tapşırıq verdi. Qısa bir müddətdə Dəmir Yumruq meydana qayıtdı və hər şey öz yoluna düşdü. İndi erməni rəhbərliyi səsini belə çıxartmır”.




A.Badamov təəssüflə onu da bildirdi ki, Üçtərəfli Bəyanatın icra olunmamış maddələri hələ də qalmaqdadır: ”Hesab edirəm ki, arada-bir antiterror əməliyyatları keçirməli olacağıq. Məhz yumruğumuzu erməninin başına vura-vura sülh müqaviləsini imzaladacağıq. Əgər erməninin əlində balaca bir fürsət olsaydı, onlar heç vaxt nə Azərbaycanla razılığa gəlməzdilər, nə də bəyanatın şərtlərini icra etməzlər. Müzəffər ordumuz 44 günlük Vətən müharibəsində ermənilərin hərbi və iqtisadi gücünü tam məhv etmişdir. İndi revanşistlərin səsləndirdikləri silahlı mübarizə ilə bağlı ifadələrin ssenarisini kənarda yazılır və bunlar səsləndirirlər. Amma həm bu revanşist ssenarini yazanlar, həm də səsləndirənlərə gün kimi aydındır ki, ifadə etdikləri fikirlər boşboşuna danmaqdan başqa bir şey deyil. Hətta belə bir addım atacaqları təqdirdə də Azərbaycanın rəşadətli ordusu gecə-gündüz hər bir hala hazır vəziyyətdədir. Məqsədimiz erməni silahlı tör-töküntüləri ərazilərimizdən təmizləmək və Qarabağın ermənilərin məskunlaşdığı ərazilərdə də Azərbaycan hakimiyyətini və dövlət quruluşunu bərpa etməkdir. İnanıram ki, buna çox az zaman qalıb”.

***Gülyana***

# “Cəmil Həsənli aradan çıxmaq istəyir”

**””Milli Şura”nın sədri olan Cəmil Həsənli gördü ki, onun sədrliyi altında ”Milli Şura” adlandırılan qurumun heç bir perspektivi yoxdur. Yəni nə cəmiyyətdə onun bir tərəfdarı, nə kifayət qədər sosial bazası, nə də ki qarşılarına qoyduqları məqsədlərinə çatmaq üçün hər hansı imkanları var. Ona görə də, Cəmil Həsənli aradan çıxmaq istəyir”. Bunu ”Səs” qəzetinə açıqlamasında Təkamül partiyasının sədri Teyyub Qənioğlu deyib.**

Onun sözlərinə görə, Əli Kərimli Cəmil Həsənlinin yerinə, yəni onun səviyyəsində, ona bərabər yaxın bir şəxs tapsın ətrafında: ”Çox güman ki, ”Milli Şura” adlı qurum buraxılacaq. Əgər buraxılmasa, onda Əli bəy müvəqqəti olaraq özü sözügedən qurumun sədrliyini üzərinə götürəcək. Yəni bundan başqa variant görmürəm. Düşünürəm ki, belə ola bilər. Çünki hər kəs bilir ki, ”Milli Şura” adlandırılan qurumun hansı məqsədlə yaradılmış və qarşılarına hansı məqsədi qoymuşdular. Qarşılarına qoyduqları məqsədin də əlçatan olmaması da hər kəsə bəllidir. Bir sözlə, çox güman ki, C.Həsənlinin sədrlikdən istefasından sonra ”Milli Şura” adlandırılan qurum özünü buraxacaq”.

***G. Ağakərimova***





**Elçin Bayramlı**
**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri**

# Qlobal mafiyanın trilyonluq biznesi: “Ölüm”dən sonrakı ”həyat”

**Orqan transplantasiyası məsələsi müəyyən vaxtdan bir ortaya atılır. Xüsusi adamlar bununla bağlı sentimental romanlar danışır, öldükdən sonra orqanlarını insanlara bağışladığını deyirlər. İlk baxışda humanist bir addım kimi görünsə də, heç də elə deyil. Məsələnin alt qatlarında daha dəhşətli faciələr yatır. Çünki öldükdən sonra göz qişasından başqa hər hansı bir orqanın köçürülməsi elmi və tibbi olaraq mümkün deyil. Söhbət yalnız ölüm diaqnozu qoyulan şəxslərdən orqanların götürülməsindən gedə bilər. Yəni, ölməmiş insandan zorakılıqla və əzabla çıxarılmış orqanlardan. Təbii ki, beyin ölümü kimi saxta diaqnoz qoyaraq.**

Buna şərait yaradılsa, həkimlər beyin ölümü diaqnozu qoyaraq xəstənin hələ tam ölməmişkən orqanlarını götürə bilərlər. Bundan qlobal orqan mafiyası necə lazımdır istifadə edir və dövriyyəsi trilyonlarla ölçülür. Beyin ölümü və digər bu tip tibbi diaqnozları təsdiq edən elmi mərkəzlər də həmin qlobal mafiyanın nəzarətindədir. Üstəlik, beyin ölümünün təyin olunma mexanizmi və bunun tam ölüm sayılması barədə dünya elmi tibb mərkəzləri həmfikir deyil. Son illərdə beyin ölümü faktının əleyhinə daha çox elmi faktlar ortaya qoyulur.

Beyin ölümü belə insanın tam ölümü demək deyil. Beyin ölümü diaqnozundan sonra sağalıb yaşayan minlərlə adam var dünyada. Bu halda beyin ölümü diaqnozu qoyularaq şəxsin orqanlarının zorla götürülməsi cinayətdir. Yəni, birini xilas etmək üçün digərini öldürmək cinayət faktıdır. Hətta ailə üzvlərinin belə buna icazə verməyə ixtiyarı, hüququ yoxdur, olmamalıdır. Yalnız bədən sahibi öz rəsmi vəsiyyəti ilə buna icazə verərsə, qəbul etmək olar, o da buna məcbur olması və ya bundan pul qazanmaq fikri haqda şübhələr olmadıqda.

Bəzi ölkələrdə orqan transplantasiya haqda qanunun qəbul edilməsi orqan qaçaqçılığına və ticarətinə vüsət verib. Hətta bəzi müharibələr məhz bu məqsədlə törədilir. Müharibə regionlarında, yoxsul ölkələrdə böyük miqyasda cinayətlər törədilir. Misal üçün, müharibə törədilən ölkələrdə- Suriyada, Liviyada, İraqda, Əfqanıstanda, Ukraynada, Misirdə yüz minlərlə uşağın və girov götürülmüş digər sağlam insanların orqanları zorla alınır və varlı ölkələrə satılır.

Kasıbların qurban verilməsi səbəbinə varlılar həyat qazanır. İnsana maddi qiymət qoyulur və o, hissə-hissə satılır. Bundan rəzil hərəkət və bundan böyük cinayət ola bilməz. Faktiki olaraq, dünyada orqan köçürülməsində vəziyyət belədir- varlılar alıcı, kasıblar donor rolunu oynayır! Bu da sosial-psixoloji, mənəvi-əxlaqi böhranın son həddi, insan cəmiyyətinin ən rəzil sifətidir.

Nəticələrlə yox, səbəblərin aradan qaldırılması ilə məşğul olmaq lazımdır. Biz bunu araşdırmalıyıq ki, niyə orqan çatışmazlığı yaranır və bunun qarşısını almaq üçün çalışmalıyıq. İnsanları sağlam həyat tərzinə, sağlam qidalanmağa, yeri gəlsə, məcbur etmək lazımdır. Qida təhlükəsizliyi maksimum təmin olunmalı, zərərli vərdiş və texnologiyalara qarşı mübarizə aparılmalıdır.

Yoxsa, kimsə heç bir qaydaya riayət etmədən yaşayır, kefini sürür, nəticədə orqanı sıradan çıxır, kimsə də insan kimi sağlam həyat tərzi sürür, sağlam orqanı olur, sonra o varlı və harın şəxsin kefcil və bivec həyat tərzinin ağır nəticələrinin əvəzini bu kasıb olan insan ödəyir. Burda ədalət hardadır? Orqan bir şərtlə verilə bilər ki, o, bərpa olunan olsun, donor şəxsin ölümünə, əlilliyinə səbəb olmasın. Əks halda, orqan ticarətinin çiçəklənməsinə stimul yaranar ki, bu da həyatda ən ağır cinayətlərdən biridir.

İnsan orqanlarının bağışlanması yalnız tibb elmi tam ölmüş insanın orqanlarından istifadə edə biləcək səviyyəyə çatdıqda reallaşa bilər. Hələlik isə, nüfuzlu alimlərin də qeyd etdiyi kimi, ölmüş insanın orqanları heç nəyə yaramır.

# Üçüncü dünya müharibəsi baş verə bilər?



”Üçüncü dünya müharibəsi olmayacaq. Çünki dünya müharibəsini heç kəs istəmir”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə bildirib. Onun sözlərinə görə, aparıcı güc mərkəzləri Çin, Amerika Birləşmiş Ştatları, NATO, Rusiya üçüncü dünya müharibəsini istəmirlər: ”Üçüncü dünya müharibəsi baş versə idi, bu, Ukraynadan başlayardı. Nə Qərb, nə də ABŞ Rusiya ilə Ukraynada üz-üzə gəlmək istəmirlər. Birbaşa Ukraynaya müdaxilə etmək istəmirlər. Digər tərəfdən Çin-ABŞ qarşıdurması daha çox virtual sahədə baş tutur. Pelosinin Tayvana səfəri ABŞ-ın hava təyyarəsi ilə müşahidə olunur. Amerikanın hərbi donanması hazır vəziyyətə gətirilib. O cümlədən Çinin hava müdafiə sistemi hazır vəziyyətə gətirilib. Çinin dəniz qüvvələri hərəkətə keçirilib. Amma birbaşa toqquşma olmayıb. Yəni əgər Çin və yaxud da ABŞ bu səfərdən istifadə edərək toqquşma yaratmaq istəsəydilər bunu edərdilər. Bu toqquşma baş verməyibsə, deməli, Çin və ABŞ 3-cü dünya müharibəsinin baş verməsini istəmirlər. Amma bütün güc mərkəzləri güc nümayiş etdirirlər, öz qüdrətini göstərməyə çalışırlar. Rusiya Ukrayna üzərində, Çin Tayvan üzərində ABŞ isə bu məsələlər ərtafında öz gücünü nümayiş etdirməyə çalışır. Öz maraqlarını təmin etmək öçün özlərini güclü göstərirlər. Hər kəs bir-birinin gücünü bilir. Bilirlər ki, toqquşma nələrə səbəb ola bilər. Ona görə də onlar bu toqquşmalardan boyun qaçırırlar”.

***Abutel İlhamqızı***

# Rus hərbi ekspert:

## "Ermənistan özünü dəhşətli vəziyyətə salıb"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Aleksandr Xramçixin: "Axı bunu özləri istəyirdilər. Nə istəyirdilər, onu da aldılar, indi bütün bunların nəticələrini özləri açır"

Taninmiş rusiyalı hərbi ekspert Aleksandr Xramçixin regionda yaranmış vəziyyətlə bağlı "Caliber" analitik mərkəzinə müsahibə verib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Aleksandr Anatolyeviç, müşahidələrinizə görə, Ermənistandakı revanşist əhval-ruhiyyə və erməni tərəfinin təxribatları fonunda Qarabağda yeni müharibə ehtimalı artıbmı?***

- Belə bir ehtimal var. Baxmayaraq ki, Ermənistanın Qarabağdan tamamilə çıxmağa hazırlaşdığına dair ekspert rəyləri var. Bu ssenaridə məsələnin nəhayət, müharibəsiz həll oluna bilməsi tamamilə mümkündür. Hesab edirəm ki, indiki mərhələdə Qarabağda yeni müharibə ehtimalı hələ o qədər də yüksək deyil, hətta orada rus sülhməramlılarının olmasını nəzərə alsaq belə, bunun sıfıra bərabər olduğunu demək olmaz.

Ermənistandakı revanşist əhval-ruhiyyəyə gəlincə, onların müharibəyə başlamaq üçün kifayət qədər potensialı olduğunu düşünmürəm.

***- Bəs bütövlükdə Ermənistanda belə bir potensialı necə görürsünüz?***

- Müstəqillik qazanandan sonra Ermənistan özünü dəhşətli vəziyyətə salıb. Axı bunu özləri istəyirdilər. Nə istəyirdilər, onu da aldılar, indi bütün bunların nəticələrini özləri açır.

***- Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının mümkünlüyünü etiraf edirsinizmi?***

- Məncə, belə bir ehtimal var.

***- Moskva Rusiyanın sülhməramlıları amilini nəzərə alaraq Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyəti necə qiymətləndirir?***





- Rusiya üçün Qarabağda sülhməramlılarının olması nöqteyi-nəzərindən status-kvo məqbuldur, xüsusən nəzərə alsaq ki, 3 ildən sonra onların regionda mövcudluğu başa çatır. Məncə, Azərbaycan üçün bu dövrü gözləmək daha asandır. Baxmayaraq ki, bunun Bakının planlarının bir hissəsi olub-olmadığını təxmin etmək mənim üçün çətindir. Buna baxmayaraq, Rusiya sülhməramlılarının bölgədə qalma müddətinin uzadılması tərəflərin istəklərindən asılıdır və onlardan hər hansı biri buna qarşı olarsa, sülhməramlılar regionu vaxtından əvvəl tərk edəcəklər.

***- Ermənistanda növbəti anti-Rusiya demarşları Rusiya hərbi bazasını Gümrüdən çıxarmağa məcbur edə bilərmi?***

- Erməni tərəfinin istəklərini nəzərə alsaq belə, indi belə bir ssenari mənə son dərəcə çətin görünür.

***- Hazırda Türkiyə-Rusiya münasibətlərini necə qiymətləndirirsiniz, onların gələcəyi varmı?***

- Bu, çox mürəkkəb və çoxşaxəli münasibətdir. Amma indiki vəziyyətə görə, Moskva və Ankaranın bir-birinə həqiqətən ehtiyacı var. Buna görə də, hətta müharibəyə getmələri üçün bəzi səbəblərin olmasına baxmayaraq, bu münasibətlərin hansısa şəkildə əhəmiyyətli dərəcədə pisləşə biləcəyini təsəvvür edə bilmirəm. Amma gördüyümüz kimi, onlar pisləşmir, əksinə, maraqların ziddiyyətinə baxmayaraq, Türkiyə ilə Rusiya arasında dostluq davam edir.

***- Bu yaxınlarda Soçi görüşündə Putin və Ərdoğan Qarabağda nə barədə razılığa gələ bilərdilər?***

- Düşünmürəm ki, bu görüşdə Qarabağ məsələsi Türkiyə və Rusiya liderlərinin əsas diqqət mərkəzində olub. Çox güman ki, Ukrayna, Suriya və qaz məsələləri daha çox müzakirə olunub.

***- Sizcə, Putin və Ərdoğan Soçidə Suriya məsələsində razılığa gələ bildilərmi?***

- "Suriya ilə bağlı razılaşma" mücərrəd səslənir. Onların razılaşa bildikləri yeganə məsələ bu ölkədə status-kvonun saxlanması idi.

***- Sizcə Türkiyə Suriyadakı hərbi əməliyyatdan imtina edə bilərmi?***

- Hər halda Türkiyə hərbi əməliyyata başlamadı, açıq-aydın görünür ki, Putinlə Ərdoğan bu məsələdə konsensusa gələ biliblər.

***- Bu yaxınlarda Tehranda keçirilən sammit Tehran - Moskva - Ankara siyasi oxunu birləşdirdi. Üç aparıcı region dövlətinin mövqelərindəki ziddiyyətləri bir daha nəzərə alsaq, bu formatın potensialı nə qədərdir?***

- Bu daha mürəkkəb dizayndır. Amma ola bilsin ki, İran və Türkiyə arasında çoxlu münaqişələr olsa da, hər şey məhz bu mürəkkəblik üzərində dayanır. Nəzərə alsaq ki, Rusiya ilə İran arasında münasibətlər birmənalı olmaqdan uzaqdır, bu əlaqələrin dolaşıqlığı o qədər mürəkkəbdir ki, qısa cavab vermək mümkün deyil.

***Müsahibə - Mətanət Nəsibova***
***Tərcümə - Elçin Bayramlı***

# Erməni "müstəqilliyi"nə rus xəyanəti...

**Bunlar da, oturub ...indi qanırlar ki, sən demə, dünənə qədər müstəqil kimi təbliğ etdikləri Ermənistan, əslində müstəqil-zad deyilmiş. Rusiyanın Meqridəki keçid məntəqəsi isə... Ermənistanın müstəqilliyinə böyük zərbə imiş.**

...Əvvəla, erməninin hansı müstəqillikdən danışdığı bir az başa düşüləsi deyil. Qeyd edilməlidir ki, bunu artıq ermənilərin özləri də deyəsən yavaş-yavaş anlamağa başlıyırlar. Qeyd edək ki, gələn ay, yəni sentyabrın 21-də Ermənistan müstəqilliyinin 31-ci ilini qeyd edəcək.

...Amma ermənilər artıq özləri də təqvimlərində qırmızı kimi qeyd etdikləri həmən gündən, həm də müstəqilliyin özündən artıq məhrum edildiklərini etiraf etməyə başlayıblar.

Qeyd edək ki, 1990-cı ilin 23 avqustunda Ermənistan SSR-nin Ali Soveti Ermənistanın İstiqlal Bəyannaməsini qəbul edərək, Ermənistan SSR-nin ləğvini və Ermənistan Respublikasının müstəqilliyini elan edib(?).

1991-ci il 21 sentyabrda Ermənistan xalqı müstəqillik referendumunda SSRİ-dən ayrılmaq üçün səs verir.

...Və beləliklə, ümumxalq referendumunda iştirak edən 2 milyon 42 min 627 ermənin 99 faizi SSRİ-nin tərkibindən çıxmağa və müstəqil Ermənistan dövlətinin yaradılmasına səs verdilər.

Və həmən gündən Ermənistan həm sənədlərdə, həm də kağız üzərində müstəqil bir dövlət oldu. Nə gözəl, nə gözəl...amma, yenə də erməni etirafına görə, üç onillikdən sonra məlum olur ki, demə, ermənilərin "müstəqillikləri" də elə özləri kimi saxta imiş.

İndi "başlarına döyürlər" ki, Ermənistan arxada qalan onilliklər ərzində guya repressiv idarəçiliyi rədd edə bilməyib. Dünyaya səpələnmiş milyonlarla (daha ağ eləməyin də...) erməni üçün cəlbedici, qanunun aliliyinə və demokratik təsisatlara hörmət edən ölkəyə çevrilə bilməyiblər.

Doğrudur, "müstəqilliyinin" ilk illərində xaricdəki ermənilərin bəzilərini müstəqil Ermənistanda yaşamağa dəvət etmişdilər. Amma gələnlər də aldadıldıqlarını görüb sonradan bir-bir aradan çıxdılar.

Nə isə, uzatmayaq, beləliklə, ötən gün xəbər yayan erməni KİV-ləri Ermənistan ərazisindəki magistralın Meğri-Ağarak hissəsində rus hərbçi postlarının peyda olduğu və oradan keçən bütün maşınları erməni nömrələri ilə yoxladıqları məlum olub. Rus hərbçiləri öz evlərindəki kimi, ermənilərin sənədlərini yoxlayır, şəxsi əşyalarına və baqaj bölmələrinə baxış keçirirlər.

Üstəlik, bu cür hərəkətləri həyata keçirmək üçün qanuni əsaslar və Ermənistanın müvafiq strukturlarından icazə təqdim edilmədən. Daha bunun nəyi müstəqillik oldu?

Gərək ki, Serjik Sarkisyanın "prezidentliyi" dövründə deyirdilər ki, guya o, Rusiyanın icazəsi olmadan evindəki televizorun kanalını belə, dəyişdirməyə cürət etmir. Təbii ki, kağız üzərində adı prezident kimi keçəndən başqa bir aqibət gözləməyə dəyməzdi.



O da yadınızda olar ki, ötən il Baş nazir Nikol Paşinyan "ölkədə bayram əhval-ruhiyyəsi olmasa da, hər halda "müstəqilliyin ildönümünü lazımi şəkildə keçirmək lazımdır" -deyə bildirmişdi. Özü də həmən ildönüm "müstəqilliyimizin" 30 illiyinə təsadüf edirdi. Nə qədər olmasa da, kənardan baxanlar var axı...

Bəs, görən, bu il necə olacaq? Əslində, ermənilər elə doğru da edirlər, müstəqil olmayan bir şeyi dünyada "müstəqil" kimi təqdim etməyə nə hacət?

***Ağasəf Babayev***

Səs
10 avqust 2022-ci il

# Azərbaycan idmançılarından növbəti medal!



**Azərbaycan Türkiyənin Konya şəhərində keçirilən 5-ci İslam Həmrəyliyi Oyunlarında 2-ci medalını təmin edib.**

Qol.az xəbər verir ki, buna taekvandoçumuz Qaşım Maqomedov (58 kq) nail olub. O, Pakistan təmsilçisi Xan Haruna qalib gələrək yarımfinala yüksəlib. Maqomedov yarımfinala vəsiqə qazandığı üçün ən azı bürünc medalı təmin edib.

Qeyd edək ki, Azərbaycan yarışda ilk medalını srağagün qazanıb. Anna Skidan çəkicatma növündə bütün rəqiblərini qabaqlayaraq, qızıl medalın sahibi olub.

## Psixoloq izah etdi





# İnsan nə zaman doğruları söyləyir?

**“Elə bir insan yoxdur ki, əsəbləşməsin və yaxud gülməsin. Bu baş verənlərin hər biri insan üçündür. İnsan psixasında yaranacaq bəzi reseptorlar var ki, həmin reseptorlar bir neçə müddət içəriyə yığılmış və onu narahat edən anlarıdır. Əsəbi vaxtda isə biz bu səbəbin nəticəsini veririk”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.**

Onun sözlərinə görə, uşaqlar arasında olan davalardan danışsaq məsələni daha aydın izah edərik: ”Buraya ibtidai sinif və yeniyetməlik dövrü davaları aiddir. Məsələn, ”Sən məndən köçürərək imtahandan keçdin”, ”Sən o zaman belə demişdin”, ”Mən səndən daha yaxşı oxuyurdum”. Bu zaman insanın içində paxıllıq yaranmağa başlayır.

Buna cütlük davalarını da misal göstərmək olar. Bu mübahisədə ”Sən busan” deyərək o insanı qarşımızda ucuzlaşdırırıq. O insan sözün təsiri altına düşdüyündən ürəyi qarşı tərəfə qarşı sınır. Bunlar insanın psixi xüsusiyyətinə aid olan durumlardır”.

Psixoloq sözlərinə belə davam edib: ”İçkili olanda həqiqətləri söyləyən insanlar da var. Bu insanlar adətən çox sakit təbiətli olurlar və bu səbəbdən də emosiyalarını çölə verə bilmirlər. Həmin zaman ağıllı emosiya bir-birini tamamlayır.

İçkili vaxtı isə vəziyyət tamamilə fərqlidir. Heç vaxt sevgisini dilə gətirməyən insan içkili zamanı öz sevgisindən danışır. Səhəri gün sakit başla düşünür ki, mən bunu düz etməmişəm. Halbuki, düz etdiyi içkili vaxtı olan halıdır. İçkili zaman o, mənliyini olduğu kimi qəbul edir. Kaş heç içki olmazdı. Çünki içki bir çox insan arasında problemə səbəb olan amillərdən biridir. Nə qədər ki, biz insanlar varıq, deyib gülüb əsəbləşəcəyik”.

***Ayşən Vəli***

# Qanunsuz ağac kəsilməsinə görə cinayət işi başlanılıb



Azərbaycanda qanunsuz ağac kəsimlərinə görə cinayət işi başlanılıb. Bu barədə SİA-ya Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, quruma daxil olan vətəndaşların ərizələri, media və səlahiyyətli dövlət qurumlarının məlumatları əsasında Cinayət təqibindən kənar icraatlar idarəsində Bakı şəhərinin Nəsimi rayonu, habelə Yevlax və Xaçmaz rayonlarının ərazilərində qanunsuz ağackəsmə faktları ilə bağlı araşdırma aparılıb.

Belə ki, Nəsimi rayonunda ”Şərq İnşaat” MTK-nın icarəsinə verilmiş olduğu ərazidə, Bakı-Qazax magistral avtomobil yolunun Yevlax rayonu ərazisindən keçən hissəsində ”Lalə tekstil” MMC-nə məxsus tikilinin qarşısında meşə fonduna daxil olmayan və Xaçmaz rayonunun ərazisində meşə fonduna daxil olan ağacların və kolların qanunsuz kəsilməsi, həmin ərazinin qanunsuz şumlanması və əkilməsi faktları aşkar edilib.

Fakta görə Cinayət Məcəlləsinin 188.1 (torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma), 255.1 (yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma), 259.2.3 və 259.2.4-cü (qanunsuz ağac kəsmə) maddələri ilə cinayət işləri başlanılaraq istintaqın aparılması üçün aidiyyəti üzrə daxili işlər orqanlarına göndərilib.

# Yeniyetmələri necə motivasiya etmək olar?

**“Stimul olaraq yeniyetmələrin özlərini böyük hiss etmələrinə şərait yaradın. Onları lazımlı məcraya yönəldin. Qoy yeniyetmə cəmiyyətin məqsədlərini, normalarını, dəyərlərini mənimsəsin və həyatına tətbiq etməyi bacarsın”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Leyla Əli deyib. Dostluq da motivasiya üçün variantlardan biridir. Ən əsası bu məsələdə ifrata varmamaqdır. Yəni, ona dostları ilə görüşməyi qadağan etmək əvəzinə, bu görüşə şərait yaradın. Məsələn, məktəbdə ilk yarım ili yaxşı qiymətlərlə başa vurmusan-dostlarınla evdə qonaqlıq təşkil edə bilərsən”.**



Psixoloq sözlərinə belə davam edib: ”Motivasiya kimi yeniyetmələrin maraqlarından istifadə edin. Bu yaşda onlarda həvəs güclü olur və tez-tez dəyişir. Bu cür motivasiyanın öhdəsindən ən yaxşı yeniyetmələrin nüfuz dairəsində olan böyüklər gələ bilər: sevimli müəllimləri, öz işini həvəslə görən valideynlər və s. Onun üçün ən əsası şəxsi nümunədir. Valideynlərin bəxş edə biləcəyi emosiya əla motivasiyadır. Övladınıza sevinc gətirəcək birgə işlər və səfərlər planlaşdırın”.

***Ayşən Vəli***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**